www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 avqust 2024-cü il Cümə № 140 (8513) Qiyməti 60 qəpik

**Xəbər**

## Dollar alışı kəskin artdı, kasıb təbəqə narahat oldu

yazısı səh.6-da

**Gündəm**

### 6 milyon 334 min nəfərə cəmi 125 deputat



1 deputat 81 min nəfəri necə təmsil edir?

yazısı səh.7-də

### Qərb "Xankəndi yolunu" yenə yanlış seçdi

yazısı səh.9-da

### Laçında həbs edilən hərbçilərlə bağlı yeni faktlar

yazısı səh.3-də

### Zəngəzur dəhlizi sülh müqaviləsindən çıxarılıb

yazısı səh.9-da

### Məktəb başlamamış forma problemi

yazısı səh.13-də

### Ömürlük məhbuslar problemi - kimlər "içəridə"dir, niyə və nə vaxt...

yazısı səh.3-də

### Mossadın şok əməliyyatı - gizlinlər üzə çıxdı

yazısı səh.12-də

### Bakıda adına biznes mərkəzi olan banqladeşli baş nazir oldu

yazısı səh.5-də

### "Miqrant ovu" başladı-azərbaycanlıların kütləvi qayıdışı...

yazısı səh.10-da

### İrəvan aeroportunda "radara düşən" Amerika təyyarəsi

yazısı səh.12-də

### Şeyx Məkkəyə niyə getmişdi?

yazısı səh.14-də

### İxtisas seçimi başladı - onlar seçimdə iştirak edə bilməz

yazısı səh.13-də

# Rusiya səfiri postuna sensasion namizəd iddiası

Deputatlığa hazırlaşan Polad Bülbüloğlunun yerinə üç nəfərin adı hallanır; Bakı merinin şansı varmı?



yazısı səh.5-də

# İşini itirən icra başçılarının sayı artır - sırada onlar var...

Gözlənilir ki, gələn il referendum keçiriləcək icra başçısı institutu ləğv ediləcək

yazısı səh.4-də



*Tofiq İbrahimov:*

### "O əmlakları onlara bağışlamasam, kişi deyiləm"

yazısı səh.3-də



İqor Levitin

### Putinin köməkçisi Bakıya niyə gəlmişdi?

yazısı səh.8-də



*Etibar Məmmədov:*

### "Seçkidə ümumi bir liderə ehtiyac var"

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 140 (8513) 9 avqust 2024

# Vüqar Səfərlinin milyonluq əmlakları özünə qaytarıldı



## İlham Əliyev Qazaxıstandadır

**Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak etmək üçün avqustun 8-də Qazaxıstana gedib.**

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidentini Qazaxıstanın baş naziri Oljas Bektenov və digər rəsmi şəxslər qarşılayıblar.

## Bu universitetlərdə qiyabi ixtisaslar ləğv edilib

**Azərbaycanda bir sıra universitetlərdə qiyabi ixtisaslar ləğv edilib.**

Məlumata görə, 15-ə yaxın universitetdə qiyabi ixtisaslara tələbə qəbulu aparılmayacaq. Belə ki, 2024/2025-ci tədris ilində Bakı Dövlət Universitetində (BDU), Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC), Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU), Azərbaycan Texniki Universitetində, Azərbaycan Memarlıq və İnşaat Universitetində, Milli Aviasiya Akademiyasında, Naxçıvan Dövlət Universitetində, Azərbaycan Dövlət Aqrar Universitetində, Azərbaycan Texnologiya Universitetində, Sumqayıt Dövlət Universitetində, Mingəçevir Dövlət Universitetində, Lənkəran Dövlət Universitetində, Azərbaycan Kooperasiya Universitetində əsasən mühəndisliklə bağlı ixtisaslarında (geologiya, qida, sənaye, neft-qaz, elektrik, maşın, metallurgiya və sair) qiyabi təhsilalma forması olmayacaq.

Həmçinin BDU-da kompüter elmləri ixtisasında da qiyabi formaya qəbul mümkün olmayacaq.




## Azərbaycanda İİV-ə yoluxanların sayı açıqlandı

**"Dünyada İİV/QİÇS-ə qarşı aparılan mübarizə tədbirlərinə baxmayaraq, infeksiyanın yayılması hələ də davam etməkdədir".**

Bu fikirləri Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktor müavini Günəş Cəfərova "Sağlam radio"da açıqlayıb.

Onun sözlərinə görə, ölkəmizdə bu infeksiya əsasən İİV-ə yoluxmaya yüksək riskli qruplar arasında yayılıb: "Azərbaycanda İİV -infeksiyasının ilk dəfə aşkar olunduğu 1987-ci ildən 2024-cü ilin ikinci rübünün sonunadək İİV-lə yaşayan insanların sayı 9926 nəfərdir. Onlardan 69,5%-i kişi, 30,5%-i qadındır. Aparılan əks epidemik tədbirlər nəticəsində ölkədə İİV/QİÇS-lə mübarizə istiqamətində mühüm addımlar atılıb və nailiyyətlər qazanılıb. Azərbaycan region ölkələri ilə müqayisədə İİV infeksiyasının yayılma göstəricisi ən aşağı olan ölkələr sırasındadır. Xüsusilə qeyd etmək istərdim ki, ölkədə İİV/QİÇS-lə mübarizə sahəsində aparılan çoxistiqamətli profilaktika strategiyası hesabına İİV/QİÇS-lə bağlı cəmiyyətdə məlumatlılıq səviyyəsi artıb".

Direktor müavini bildirib ki, orta və ali məktəblərdə, tibb müəssisələrində, insanların sıx toplaşdığı məkanlarda və eyni zamanda risk qrupları arasında aparılan maarifləndirici tədbirlər və müayinə aksiyaları ölkədə İİV-ə müayinələrin səviyyəsinin yüksəlməsinə, bilavasitə aşkarlanmanın artmasına səbəb olub. Aparılan müayinələr nəticəsində İİV-ə yoluxan şəxslər xəstəliyin erkən mərhələlərində aşkar olunaraq müalicə proqramına vaxtında cəlb olunurlar.

G.Cəfərova qeyd edib ki, İİV-lə yaşayan insanların müalicəsində son illər ÜST tərəfindən tövsiyə olunan müasir, daha effektiv və kombinə olunan preparatların istifadəsi də İİV-ə yoluxmuş insanların həyat keyfiyyətinin yaxşılaşmasına və ömrünün uzanmasına səbəb olur.



**Üç ildən çoxdur həbsdə olan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (ləğv edilib-red.) rəhbəri Vüqar Səfərlinin əmlak davası başa çatıb.**

"Qafqazinfo" xəbər verir ki, Bakı Apelyasiya Məhkəməsi Səfərlinin 12 əmlakının bir neçəsinin müsadirə edilməsini qanunsuz hesab edib.

Anar İbrahimovun sədrlik etdiyi məhkəmə tərkibi əmlakların cinayət baş verən dövrdən əvvəl alınması ilə bağlı dövlət qurumlarından gələn sorğuya cavabları və məhkumun vəkili Hikmət Əliyevin təqdim etdiyi digər sübutları araşdırdıqdan sonra belə qənaətə gəlib.

Qərara əsasən, Vüqar Səfərlinin milyonluq əmlakları müsadirədən azad edilib. Həmin əmlaklar onun özünə qaytarılacaq.

**Əmlakların siyahısı belədir:**

- Xətai rayonu, 8 Noyabr prospekti, 23 ünvanında yerləşən qeyri-yaşayış sahəsi;
- Binəqədi rayonu, Goradil kəndindəki 0,104 hektarlıq bağ sahəsi;
- Xətai rayonu, 8 Noyabr prospektində yerləşən 23 nömrəli evin birinci mərtəbəsindəki 39 kv/m-lik qeyri-yaşayış sahəsi;
- Xətai rayonunda yerləşən "Amay" ticarət mərkəzindəki mağaza.

Prokuror qərardan narazı qalıb.

Qeyd edək ki, Vüqar Səfərli 2021-ci ildə həbs edilib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə V.Səfərli mənimsəmə, rüşvət alma və digər cinayətlərdən 10 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Onun üzərinə həbs qoyulmuş çoxsaylı əmlakları müsadirə edilib.

Sonrakı instansiya məhkəmələri keçmiş KİVDF rəhbərinin cəza müddətini qüvvədə saxlasalar da, Ali Məhkəmə onun özünün və ailə üzvlərinin adına olan əmlakların müsadirə edilməsi məsələsinə yenidən baxılmasını qərara alıb. İş həmin hissənin araşdırılması üçün apelyasiya instansiyasına qaytarılıb.

# İki il əvvəl Laçında itkin düşən hərbçilərimiz dəfn edildi



**2022-ci il martın 3-də Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə itkin düşmüş Azərbaycan Ordusunun əsgərləri Fərid Məmmədov və Firdovsi Abdullayevin nəşləri dəfn edilib.**

Fərid Məmmədovun nəşi Quzanlı qəsəbəsindəki Şəhidlər Xiyabanında yaylım atəşi altında torpağa tapşırılıb. Tabuta bükülmüş Azərbaycanın üçrəngli dövlət bayrağı atasına təqdim edilib.

Firdovsi Mais oğlu Abdullayevin qalıqları isə Gəncə şəhər Məhsəti qəsəbəsində yaşadığı evə gətirilərək valideynlərinə təhvil verilib. O, dünən Gəncə Şəhidlər xiyabanında dəfn olunub.

Qeyd edək ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında təmsil olunan aidiyyəti dövlət qurumları tərəfindən aparılmış axtarış-araşdırma işləri nəticəsində iyulun 3-də Kəlbəcər rayonunun İstisu qəsəbəsindəki Yüzbulaq yaylağının ərazisində Azərbaycan Ordusunun iki hərbçisinə aid olduğu ehtimal edilən meyit qalıqları aşkarlanaraq götürülüb. Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin Genetik Araşdırmalar Mərkəzində həyata keçirilmiş ekspertizalar nəticəsində qalıqların 2022-ci il martın 3-də Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin qəfil dəyişməsi və çovğun səbəbindən istiqaməti itirərək itkin düşmüş Azərbaycan Ordusunun əsgərləri - 23.05.2003-cü il təvəllüdlü Məmmədov Fərid Əjdər oğlu və 09.02.2003-cü il təvəllüdlü Abdullayev Firdovsi Mais oğluna aid olduğu müəyyən edilib.



## Cəbrayıla köç başlayır

**Növbəti ay Cəbrayıl şəhərinə köç həyata keçiriləcək.**

Bunu Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin böyük məsləhətçisi Anar Əkbərov deyib.

O bildirib ki, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı çərçivəsində üç şəhər mərkəzi, 5 qəsəbə, 24 kəndin inşası və oraya əhalinin köçürülməsi nəzərdə tutulub:

"2022-2026-cı illəri əhatə edən proqramın birinci mərhələsi çərçivəsində 41 mindən çox keçmiş məcburi köçkün könüllülük prinsiplərinə əməl olunmaqla öz dədə-baba yurdlarına köçəcəklər. Növbəti ay Cəbrayıl şəhərinə köç həyata keçiriləcək. Oktyabrın 4-də Cəbrayıl şəhərinin azad edildiyi gündür. Bu münasibətlə keçiriləcək tədbirlərdə gəncləri görmək çox xoş olardı".



## Daha bir yolda hərəkət məhdudlaşdırılır

**Avqustun 10-da saat 06:00-dan avqustun 12-də saat 09:00-dək aparılacaq təmir işləri ilə əlaqədar Bakı şəhəri, 8 Noyabr prospekti ilə Xəqani Rüstəmov küçəsinin kəsişməsində avtonəqliyyat vasitələrinin hərəkəti tam məhdudlaşdırılacaq.**

Bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi məlumat yayıb.

Sürücülərdən aparılan işlərə anlayışla yanaşmaları, qeyd olunan müddət ərzində hərəkət istiqamətlərinə uyğun alternativ yollardan istifadə etmələri xahiş olunur.

## Qarabağ Universitetində rus bölməsi olmayacaq

**Qarabağ Universitetində tədrisin hansı dillər üzrə aparılacağına aydınlıq gətirilib. Bu il tədris Azərbaycan və ingilis dillərində aparılacaq, rus bölməsi üzrə qəbul isə yoxdur.**

Həmçinin qeyd edilib ki, ingilis bölməsi üzrə təhsil alacaq tələbələrin birinci ildə dil biliyinin təkmilləşdirilməsi üçün işlər görüləcək. Növbəti ildən isə bütün tədris ingilis dilində aparılacaq.



# Laçında həbs edilən hərbçilərlə bağlı yeni faktlar

**Azərbaycan Ordusunun əsgərləri Məmmədov Fərid Əjdər oğlu (23.05.2003) və Abdullayev Firdovsi Mais oğlunun (09.02.2003) 2022-ci il martın 3-də Laçın rayonu ərazisində itkin düşməsi ilə bağlı azadlıqdan məhrum edilən iki hərbçi tabeliyində olan şəxsə zor tətbiq etməkdə, işgəncə verməkdə və vəzifə səlahiyyətlərini aşmaqda ittiham olunurlar.**

APA-nın xəbərinə görə, Hərbi Prokurorluğun avqustun 7-də yaydığı məlumatdan aydın olur ki, Hərbi Prokurorluğun İstintaq İdarəsində istintaqı aparılmış cinayət işi üzrə Babayev Təbriz Rasim oğluna Cinayət Məcəlləsinin 329.2.1-ci, 329.2.2-ci, 329.2.6-cı və 341.3-cü maddələri, Həmşəyev Taleh Möhübbət oğluna isə Cinayət Məcəlləsinin 341.3-cü maddəsi ilə ittiham elan edilib və iş baxılması üçün Füzuli hərbi məhkəməsinə göndərilib.

Füzuli hərbi məhkəməsinin 22.09.2023-cü il tarixli hökmü ilə Təbrik Babayev və Taleh Həməşəyev onlara elan olunmuş yuxarıda qeyd edilən maddələrdə nəzərdə tutulmuş cinayət əməllərini törətməkdə təqsirli bilinərək müxtəlif müddətlərdə azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər.

Qeyd edək ki, Cinayət Məcəlləsinin 329-cu maddəsində tabelikdə olan hərbi qulluqçuya qarşı zorakı hərəkətlərə görə cəza nəzərdə tutulur.

Təbriz Babayev Cinayət Məcəlləsinin 329.2.1-ci (eyni əməllər təkrar törədildikdə), 329.2.2-ci (eyni əməllər iki və ya daha çox şəxsə qarşı törədildikdə), ən acınacaqlısı isə 329.2.6-cı maddəsi (eyni əməllər işgəncə verməklə törədildikdə) üzrə təqsirli bilinib.

Bundan başqa, ona qarşı Cinayət Məcəlləsinin 341.3-cü (Vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə də ittiham irəli sürülüb.

Azadlıqdan məhrum edilən digər hərbçi Taleh Həməşəyev isə Cinayət Məcəlləsinin 341.3-cü (Vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma) maddəsi üzrə təqsirli bilinib.

Qeyd edək ki, Azərbaycan Ordusunun 2022-ci il martın 3-də Laçın rayonu ərazisində itkin düşmüş əsgərləri Məmmədov Fərid Əjdər oğlu (23.05.2003) və Abdullayev Firdovsi Mais oğlunun (09.02.2003) meyitlərinin qalıqları Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında təmsil olunan aidiyyəti dövlət qurumları tərəfindən aparılmış axtarış-araşdırma işləri nəticəsində 2024-cü il iyulun 3-də Kəlbəcər rayonu, İstisu qəsəbəsindəki Yüzbulaq yaylağının ərazisində aşkarlanaraq götürülüb.

Həyata keçirilmiş kompleks istintaq tədbirləri, məhkəmə-tibb və kriminalistik tədqiqatlarla müəyyən edilib ki, həmin əsgərlər 3 mart 2022-ci ildə Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin qəfil dəyişməsi və çovğun olmasından istiqaməti itirərək itkin düşüb, uzun müddət soyuq temperaturda qalmaqla donvurma səbəbindən ölüblər.

Hər iki əsgər avqustun 8-də dəfn olunub.

# Ömürlük məhbuslar problemi - kimlər "içəridə"dir, niyə və nə vaxt...

## Novella Cəfəroğlu: "Ümid edirik ki, ən nəhayət, biz onları azadlıqda görə biləcəyik"



**Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyevanın tapşırığı əsasında Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən növbəti başçəkmələr əvvəlcədən xəbərdarlıq etmədən Penitensiar Xidmətin Umbakı Penitensiar Kompleksinə və Müalicə Müəssisəsinə həyata keçirilib. Ombudsman Aparatından verilən məlumata görə, "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Ombudsman haqqında Konstitusiya Qanunu əsasında təşkil olunmuş başçəkmələrdə məqsəd bu müəssisələrdə saxlanma şəraiti və rəftar məsələlərinin, habelə daxil olmuş müraciətlərin araşdırılması olub.**

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmələr zamanı müraciətləri və təsadüfi seçim əsasında bu müəssisələrdə saxlanılan bir sıra şəxslər, o cümlədən ömürlük azadlıqdan məhrum edilmiş məhkumlar qəbul edilib. Onların müraciətləri dinlənilib, onlara Ombudsmanın səlahiyyətləri izah olunub, bəzilərinin ərizələri qəbul edilib. MPQ üzvləri tərəfindən Penitensiar Xidmətin Müalicə Müəssisəsində konfidensial qaydada qəbul edilən Fazil Qasımov barəsində olan cinayət işi ilə bağlı qida qəbulundan imtina etdiyini bildirib, qaldırdığı məsələlər üzrə müraciətləri yerində qəbul olunub. Fazil Qasımovun sağlamlıq vəziyyətinin nəzarətdə saxlanılması ilə də bağlı müalicə müəssisəsinin rəhbərliyinə müvafiq tövsiyələr verilib. Qeyd edilib ki, Fazil Qasımov əvvəl də saxlanıldığı müəssisədə MPQ üzvləri tərəfindən qəbul edilib, hüquqlarının müdafiəsi ilə bağlı hüquq-mühafizə orqanlarına və Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə müvafiq müraciətlər ünvanlanıb.

Başçəkmələrin yekununda həmin müəssisələrin rəhbərliyi və məsul əməkdaşları ilə milli və beynəlxalq qanunvericilik əsasında hüquqi maarifləndirici söhbət aparılıb, saxlanma şəraitinin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilib.

Hər əfv öncəsi 30 ilə yaxındır həbs cəzası çəkən keçmiş OMON-çular - Elçin Əmiraslanov, Səfa Poladov, Arif Kazımov, 21 il həbsdə olan, "Qarabağ partizanı" adı ilə məşhurlaşan Məmməd Məmmədov barələrindəki ömürlük cəzanın müddətli cəza ilə əvəzlənəcəyi barədə fikirlər səsləndirilir. Amma "ömürlük"lərin problemi həll edilmir.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu "Yeni Müsavat"a deyib ki, ömürlük OMON-çular da, "Qarabağ partizanları"da, "Qaranquşlar" da humanizm gözləyir:** "Onsuz da həbsdəki ömürlüklər xəstədirlər. Heç olmasa, azadlıq havasını ömürlərinin bundan sonrakı hissəsində udsunlar. Qarabağ döyüşlərində onlar iştirak ediblər. Elçinin başının yarısı plastmasdır. Onlardan cəmiyyətə nə zərər gələcək? Ümid edirik ki, ən nəhayət, biz onları azadlıqda görə biləcəyik. Biz cənab Prezidentin hər zaman humanistliyinin şahidi olmuşuq. Bu adamlar ömürlərinin böyük hissəsini həbsdə keçiriblər. Onların artıq azadlığa buraxılmalarına çox böyük ehtiyac var. Onlar cəzalarını artıqlaması ilə çəkiblər".

Qeyd edək ki, Azərbaycanda 300-ə yaxın ömürlük məhbus var, onlar hamısı qapalı tipli Qobustan həbsxanasında saxlanılır. Məhbusların əksəriyyəti zamanında güllələnməyə məhkum edilib, amma 1998-ci ildə bu hökm ömürlük həbslə əvəz edilib.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# "O əmlakları onlara bağışlamasam, kişi deyiləm" - işdən çıxarılan icra başçısı




**Vəzifəsindən azad edilən Ağdaş Rayon İcra Hakimiyyətinin sabiq başçısı Tofiq İbrahimovun səhhətində problem yaranıb.**

Bu barədə Manset.az-a açıqlamasında Tofiq İbrahimov özü məlumat verib.

O qeyd edib ki, bir neçə dəfə əməliyyat olunub: "Uzun müddətdir onkoloji xəstəlikdən əziyyət çəkirəm. Türkiyədə əməliyyat olunmuşam, vəziyyətim çox pisdir. Hazırda müalicəm davam edir, nə olacağını bilmirəm".

**Sabiq başçı bir sıra saytlarda yayılan, əmlaklarının olduğu iddia olunan siyahıya münasibət bildirib:** "Bu, tamamilə yalan məlumatdır. Mənim o boyda əmlakım haradan ola bilər? İki min baş camışı otarmaq üçün nə boyda örüş sahəsi lazımdır. Mən əməliyyat olunanda uşaqlarım yanıma gəlmişdi. Həmin vaxtı onlar hoteldə qaldılar. Mənim o boyda mülklərim varsa, övladlarım niyə hoteldə qalırdılar? Bu məlumatı neçə il öncə Sənan adlı jurnalist yazmışdı. İndi o həbsdədir. Götürüb illər əvvəl onun yazdığı yalan informasiyanı yenidən tirajlayırlar. Bunlar Allahdan qorxmurlar? Yazdıqları mülklərin mənə və ya yaxınlarıma məxsus olduğunu sübut etsinlər. O əmlakları onlara bağışlamasam, kişi deyiləm".

# Atasının qisasını alıb... - Mərdəkandakı qətlin təfərrüatı



**Avqustun 7-də saat 20 radələrində paytaxtın Xəzər rayonu ərazisində 1972-ci il təvəllüdlü Amin Xudaverdiyevin qəsdən öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Xəzər rayon Prokurorluğundan verilən məlumata görə, araşdırma zamanı 1993-cü il təvəllüdlü Ruhulla Abdullazadənin Xəzər rayonu Mərdəkan çimərliyi ərazisində şəxsi münasibətlər zəminində Amin Xudaverdiyevi ov silahından atəş açaraq qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Xəzər Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsilə cinayət işi başlanıb, Ruhulla Abdullazadə iş üzrə şübhəli şəxs qismində tutulub.

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, hadisəni törətməkdə şübhəli bilinən 1993-cü il təvəllüdlü Ruhulla Abdullazadənin atası ötən ilin noyabrında qətlə yetirilib. Belə ki, həmin vaxt Amin Xudaverdiyevin kiçik qardaşı Pərviz Xudaverdiyev silahla Ruhullanın atası Cavanşir Abdullayevi güllələyərək öldürüb.

Qətlin də məhz qisas zəminində törədildiyi deyilir.

Amin Xudaverdiyevin biznes fəaliyyəti ilə məşğul olduğu, yaşadığı Mərdəkan qəsəbəsində və ətraf ərazilərdə nüfuz sahibi olduğu bildirilir.

# Bakıda 100 min manata yaxın dələduzluq edən qadın saxlanıldı

**Bakıda dələduzluqda şübhəli bilinən qadın saxlanılıb. Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, cari il iyun-iyul aylarında paytaxt sakini olan bir nəfərin aldadılaraq 98930 manatının ələ keçirilməsi barədə polisə məlumat daxil olub. Nəsimi Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində əməli törətməkdə şübhəli bilinən əvvəllər dələduzluq cinayətinə görə məhkum olunmuş Ruhiyyə Ramazanova müəyyən olunaraq saxlanılıb.**

Saxlanılan şəxslə bağlı aparılan araşdırmalarla onun Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə axtarışda olması da müəyyən edilib", - deyə məlumatda qeyd edilib.

Hazırda araşdırmalar davam etdirilir.

YENİ MÜSAVAT
N 140 (8513) 9 avqust 2024




# Həbsdəki "Neftçala məmurları"nın işinə yenidən baxılacaq

**Ali Məhkəmədə hakim Tahir Kazımovun sədrliyi ilə Neftçala Rayon İcra Hakimiyyətinin sabiq başçısı İsmayıl Vəliyev və onunla birgə mühakimə olunan digər şəxslərin kasasiya şikayətinə baxılıb.**

İsmayıl Vəliyev və suç ortaqları Ali Məhkəməyə üz tutublar və barələrindəki qərarın ləğv edilərək yeni baxış keçirilməsini xahiş ediblər. Hakim Tahir Kazımovun sədrliyi ilə keçirilən iclasda kasasiya şikayəti təmin edilib. Aşağı instansiya məhkəməsinin çıxardığı qərar tamamilə ləğv olunub, iş yenidən baxılması üçün apelyasiya instansiyasına göndərilib.

Şirvan Apelyasiya Məhkəməsinin qərarı ilə İsmayıl Vəliyevin cəzası 10 ildən 9 il 6 aya, Gültəkin Sadıqovanın cəzası 6 il 6 aydan 6 ilə, Əjdər Kərimovun cəzası isə 8 il 6 aydan 8 ilə endirilmişdi.

Qeyd edək ki, bu ilin fevralında Ali Məhkəmədə İsmayıl Vəliyev və digərləri barələrindəki qərardan kassasiya şikayətlərinə baxılıb. Ali Məhkəmənin qərarına əsasən, İsmayıl Vəliyevin cəzası 6 il 2 aya, Telman Zahidovun cəzası 5 il 6 aya, Əjdər Kərimovun cəzası 5 il 10 aya, Anar Cəfərovun cəzası 5 il 6 aya, Vurğun Əkbərovun cəzası 6 ilə, Vüqar Nağıyevin cəzası isə 5 il 8 aya, Gültəkin Sadıqovanın cəzası isə 4 il 6 aya endirilib. Yada salaq ki, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə İsmayıl Vəliyev 10 il, Gültəkin Sadıqova 6 il 6 ay, Telman Zahidov 8 il 3 ay, Əjdər Kərimov, 8 il 6 ay, Anar Cəfərov 8 il, Vurğun Əkbərov 9 il, Vüqar Nağıyev isə 8 il azadlıqdan məhrum edilmişdilər.

Xatırladaq ki, İsmayıl Vəliyev və digər vəzifəli şəxslər Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən 2020-ci ilin fevralında həbs olunmuşdular. İsmayıl Vəliyevin mütəmadi olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə edib təhsil, səhiyyə və digər yerli dövlət təsisatları rəhbərlərindən müxtəlif adlar altında şəxsən pul vəsaitləri tələb edərək almasına əsaslı şübhələr müəyyən olunub. Həmçinin İsmayıl Vəliyevin şəxsən, habelə icra hakimiyyəti başçısının birinci müavini Vurğun Əkbərov, Memarlıq və tikinti şöbəsinin müdiri Vüqar Nağıyev, tabeçiliyində olan digər vəzifəli şəxslər vasitəsi ilə rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən müxtəlif adlar altında pul vəsaitləri tələb edərək almasına əsaslı şübhələr müəyyən edilib. İsmayıl Vəliyevin, Vurğun Əkbərovun, icra başçısının müavini Gültəkin Sadıqovanın, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Anar Cəfərovun xidməti otaqlarına məhkəmənin qərarı əsasında keçirilən baxış zamanı müxtəlif yerli icra hakimiyyəti və digər yerli dövlət orqanlarının vəzifəli şəxslərindən, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən alınmış vəsaitlərin öz əlyazmaları ilə tərtib olunmuş siyahıları, külli miqdarda pul vəsaitləri, sənədlər və iş üzrə əhəmiyyət kəsb edən digər dəlillər aşkar edilərək götürülüb.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# İşini itirən icra başçılarının sayı artır - sırada onlar var...

## Gözlənilir ki, gələn il referendum keçirilərək icra başçısı institutu ləğv ediləcək



**Son bir ayda ölkədə bir neçə rayonun icra başçıları dəyişdirilib. Belə ki, Suraxanı (Əziz Əzizov Beyləqana göndərilib-red), Oğuz, Qusar və Daşkəsənə yeni icra başçıları təyin olunub. Avqustun 7-də Ağdaşın icra başçısı da vəzifəsini itirib. O, 2012-ci ildən Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini tuturdu.**

Yada salaq ki, bundan əvvəl də yaşı ötmüş bir neçə icra başçısı vəzifəsindən kənarlaşdırılmış, onları əsasən gənc kadrlar əvəz etmişdi.

"Yeni Sabah"ın iddiasına görə, bu ayın sonuna kimi, ən azı 6 icra başçısı da işini itirəcək. Mənbə deyib ki, bu şəxslərlə bağlı qərar artıq verilib. Onların işdən azad edilməsi ilə bağlı sərəncam qısa ara ilə sentyabr ayının sonuna kimi elan olunacaq.

O da faktdır ki, bəzi icra başçıları on il və daha artıq müddətdir eyni bölgədə icra hakimiyyətinin başçısı postunu tutur.

2014-cü ildən Müstəqim Məmmədov Tərtərin, 2013-cü ildən Vasif İmanov Bakının Pirallahı rayonunun icra başçısıdır.

2012-ci ildən Arif Ağayev Astaraya, Xəzər Aslanov Xızıya, Taleh Qaraşov Lənkərana, Adil Vəliyev Bakının Sabunçu rayonuna, 2011-ci ildən İslam Rzayev Balakənə, Vidadi İsayev Bərdəyə, Alı Alıyev Füzuliyə, Adil Məmmədov Qobustana, Elxan Usubov Şəkiyə, Ramiz Həsənov Zəngilana, 2010-cu ildən Süleyman Mikayılov Bakının Qaradağ rayonuna, Musa Şəkiliyev Qaxa, Səbuhi Abdullayev Qəbələyə rəhbərlik edir.

2009-cu ildən Mübariz Əhmədzadə Zaqatalanın, 2001-ci ildən Malik İsaqov Qubadlının, 2000-ci ildən Şahmar Usubov Xocalının icra başçısı vəzifəsindədir. Eyvaz Hüseynov Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı postuna 1992-ci ildə təyinat alıb.

Qeyd edək ki, hazırda işğaldan azad edilmiş rayonlarda xüsusi nümayəndəlik institutu fəaliyyət göstərir. Dövlət başçısının sərəncamı ilə yaradılmış yeni institut faktiki olaraq bütün idarəetmə mexanizmini həyata keçirir. İddialara görə, icra hakimiyyətlərinin parlament seçkilərindən sonra keçiriləcək referendumla ləğv ediləcəyi gözlənilir. Bəs bu kadr dəyişikliklərini ekspertlər necə şərh edir?

**AMİP liderinin köməkçisi, siyasi ekspert Əli Orucov "Yeni Müsavat"a açıqlamasında icra hakimiyyətləri institutunun saxlanılmasının doğru olmadığını söylədi:** "Yerli icra hakimiyyəti orqanları sabiq prezident Ayaz Mütəllibovun hakimiyyəti dönəmində 1991-ci ilin əvvəllərində keçmiş rayon partiya komitələrinin bazası əsasında yaradılıb. Həmin vaxt rayon partiya komitəsinin birinci katibi postu ləğv edilərək icra hakimiyyəti başçısı vəzifəsi təsis edildi. Belə demək mümkünsə, indiki rayon icra hakimiyyəti başçıları SSRİ-dən qalma birinci katiblərin sələfləridir. İcra hakimiyyəti başçılarına çox geniş səlahiyyətlər verildiyindən bəzən özlərini rayonun ağası kimi aparırlar. SSRİ dağılıb tarixin arxivinə getsə də, bəzi idarəçilik ənənələri, o cümlədən rayon icra hakimiyyəti başçıları postu hələ də mövcudluğunu saxlayır. Həddindən artıq köhnəlmiş və müasir dövrün tələblərinə cavab verməyən yerli icra hakimiyyətini kadr dəyişiklikləri və yaxud əvəzlənmələri ilə saxlamaq doğru seçim deyil. Sistem elə qurulub ki, həmin vəzifəyə kim təyin olunur-sa-olunsun, müsbət irəliləyişlərə nail olmaq və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətində dönüş yaratmaq mümkün deyil. Faktiki olaraq bu qurumlar korrupsiyalaşmış, inkişafı ləngidən bir quruma çevrilib. Həbs olunan, vəzifəsindən uzaqlaşdırılan bir sıra icra başçılarının timsalında yerli icra hakimiyyəti orqanlarının nə rayonların idarə edilməsində, nə əhalinin sosial-rifah halının yüksəldilməsində, nə də vətəndaşlara keyfiyyətli xidmətlərin göstərilməsində heç bir pozitiv rol oynamadığını, əksinə, dövlətin verdiyi qeyri-məhdud səlahiyyətlərdən və büdcədən ayırdığı vəsaitlərin böyük həcmini mənimsəməklə, hətta reketliklə məşğul olmaqla öz şəxsi mənafelərini təmin edib. Bu gün də təəssüf ki, eyni tendensiyalar davam etməkdədir. Ona görə də hesab edirəm ki, icra hakimiyyətləri ləğv edilməli, Prezidentin yerlərdə nümayəndəliyi kimi çox da geniş olmayan səlahiyyətlər verməklə əvəzlənməlidir. Ştatlar da azaldılmalıdır ki, həm dövlət büdcəsinə artıq yük olmasın, həm də süni surətdə şişməsin. Yerli idarəetmə isə bələdiyyələrə verilməlidir. Cəmiyyətdə də icra hakimiyyətlərinə münasibət əksərən mənfidir. Elə bir icra başçısı nümunə üçün göstərmək mümkün olmur ki, o həqiqətən də rayon sakinlərinin qayğısına qalsın, öz vəzifəsinə vicdanla və peşəkarcasına yanaşsın. Azərbaycanda aparılan islahatlar ilk növbədə idarəçilikdə, xüsusən də yerli icra hakimiyyəti orqanlarından başlamalıdır".

**Siyasi ekspert qonşu ölkələrdən nümunələr gətirdi**: "Hesab edirəm ki, 80 rayonda icra hakimiyyətinə ehtiyac yoxdur. Bunu 14 iqtisadi rayonlar üzrə formalaşdırmaq daha məqsədəmüvafiq olardı. Məsələn, qonşu Gürcüstanın inzibati bölgüsü 12 əyalətdən, Ermənistanınkı isə 10 əyalətdən ibarətdir. Lakin hər iki Cənubi Qafqaz ölkəsində bələdiyyələrin sayı çoxdur və geniş səlahiyyətlərə malikdir. Yerli özünüidarətmə bütünlükdə seçkili qurumların ixtiyarındadır və xalqa, seçicilərə hesabatlıdır. Azərbaycandakı inzibatı-ərazi bölgüsü hesab olunan icra hakimiyyətləri başçıları Prezident tərəfindən təyin olunur və onun qarşısında hesabatlıdır. Ona görə də xalq qarşısında heç bir hesabatlılığı və məsuliyyəti olmadığı qənaəti yaradır. İşğaldan azad olunan ərazilərdə Prezidentin səlahiyyətli nümayəndəliyi vəzifələri keçici olsa da, ona da geniş səlahiyyətlərin verilməsi gələcəkdə neqativ hallara yol açma riski yaradır. Ümid edirəm ki, parlament seçkilərindən sonra rayon icra hakimiyyətləri ləğv olunaraq daha təkmil və çevik, mobil bir institut yaradılacaq. Bələdiyyələrə geniş imkanlar veriləcək. Ən azından müstəqil fəaliyyət göstərməsinə yaradılan əngəllər aradan qaldırılacaq. Seçkili institutlar öz yerini tutmasa, rayon icra başçıların dəyişmək heç nəyi dəyişməyəcək. Kosmetik dəyişikliklərlə deyil, fundamental reformalarla tərəqqiyə nail olmaq mümkündür".

**Ədalət, Hüquq, Demokratiya Partiyası sədrinin müavinin, politoloq Niyaməddin Orduxanlı gələn il icra hakimiyyətləri institutunun ləğv ediləcəyini düşünür:** "Azərbaycanda icra başçıları institutu sovet rejimindən qalmış bir idarəçilik formasıdır. Əhalinin böyük əksəriyyəti icra başçılarından narazıdır. Faktiki bu gün Azərbaycanda icra başçıları idarəçiliyi özünü doğrultmur. Azərbaycanda 3 formada idarəçilik tətbiq edilir. İcra hakimiyyətləri, yerli bələdiyyələr və Prezidentin xüsusi nümayəndəliyi. Məncə, dünyanın heç bir ölkəsində bu formada idarəçilik yoxdur. Həm də icra başçıları özlərini rayonun xanı, ağası, kiçik padşahı kimi aparır. Onlarla adlar çəkdiniz ki, bu adamlar icra başçıları vəzifələrini tuturlar. Araşdırma aparılsa, görmək olar ki, əhalinin ən çox narazı qaldığı strukturlardan biri də icra hakimiyyətləridir. İcra hakimiyyətləri ləğv edilməlidir. Mütləqdir ki, referendum islahatları aparılsın. Bu məsələ ölkənin gündəmində idi. Görünür, bu il nəzərdə tutulan seçkilər və beynəlxalq tədbirlər referendum keçirilməsinə imkan vermədi. Yəqin ki, gələn il Azərbaycanda referendum keçiriləcək və icra başçıları ləğv ediləcək. Referenduma çıxarılsa, əhalinin böyük əksəriyyəti bu qurumun ləğv edilməsinin lehinə səs verəcək. Mən belə düşünürəm".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Rusiya səfiri postuna sensasion namizəd iddiası

## Deputatlığa hazırlaşan Polad Bülbüloğlunun yerinə üç namizədin adı hallanır; **ekspert:** "Yeni səfir güclü kadr olmalıdır ki..."

**Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində iştirakı dəqiqləşdikdən sonra onun yerinə göndəriləcək namizədlər haqqında müzakirələr davam edir. Bəllidir ki, Polad Bülbüloğlunun 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsindən namizədliyi təsdiqlənib. Hakim Yeni Azərbaycan Partiyasının (YAP) 124 saylı seçki dairəsindən namizədi Leyla Babışovadır. O, YAP Şuşa rayon təşkilatının sədr müavinidir. Adıçəkilən seçki dairəsindən Azad Vətən Partiyasının sədri Akif Nağı da mandat uğrunda yarışacaq.**




1945-ci ildə anadan olan P.Bülbüloğlu 1995-ci ildə 45 saylı Şuşa-Cəbrayıl-Xocavənd seçki dairəsindən deputat olub. 2006-cı ildən Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiridir. P.Bülbüloğlunun deputat seçiləcəyi təqdirdə bəllidir ki, səfir postundan geri çağırılmalıdır.

Azərbaycanın Qarabağda suverenliyini tam bərpasından və Rusiya sülhməramlıları ölkəmizi tərk etdikdən sonra Bakı-Moskva münasibətləri siyasi baxımdan stabillik dövrünü yaşayır. Şuşada keçirilən Beynəlxalq Media Forumda Prezident İlham Əliyev Rusiya ilə əlaqələrin indiki vəziyyəti və gələcək perspektivi barədə də suala cavab verib. Prezident deyib ki, ikitərəfli münasibətlərdə həll oluna bilməyən məsələ mövcud deyil və uzun müddətdir ki, belədir. Avqustun 6-da Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu ilə görüşdə də Prezident bir daha iki ölkə arasında münasibətləri yüksək qiymətləndirib. Azərbaycan-Rusiya münasibətlərinin bəzi qonşu dövlətlər üçün də bir nümunə olduğunu deyən Prezident İlham Əliyev bunu Cənubi Qafqazda və daha geniş məkanda mühüm təhlükəsizlik faktoru kimi dəyərləndirib. Prezident deyib ki, ilk növbədə geosiyasi vəziyyətlə bağlı əməkdaşlıq son dərəcə zəruridir.

Rusiyaya səfir postuna göndəriləcək şəxs isə iki ölkə arasında münasibətlərin spesifikliyini nəzərə almalıdır. Yəni Rusiyada səfir olmaq asan iş deyil və başqa dövlətlərdən fərqlənir. Çünki həm Rusiyada 3 milyondan çox azərbaycanlının yaşadığını nəzərə almaq lazımdır, həm regionda gedən proseslər fonunda Bakı-Moskva əlaqələrinin əhəmiyyəti diqqətə alınmalıdır. O baxımdan, namizədlər haqqında müzakirə aparıldığı deyilir.

Bir müddət əvvəl bu strateji posta YAP-ın seçki siyahısında olmayan deputat Elnur Allahverdiyevin adı hallanıb. Bundan başqa, Prezidentin köməkçilərindən birinin də Rusiyaya səfir göndəriləcəyi haqda iddialar dolaşmaqdadır. Etibarlı mənbə "Yeni Müsavat"a Rusiyaya göndərilə biləcək şəxslər arasında Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun da adının hallandığını deyib.


Eldar Əzizov

Qeyd edək ki, Eldar Əzizov 1957-ci ildə Bakıda anadan olub. İxtisasca tarixçidir. O, Bakı şəhəri Səbayel (2015-2018), Sumqayıt (2011-2015), Gəncə (2003-2011) və Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışıb. 2018-ci ilin noyabr ayından Bakı Şəhər İcra Hakimiyyətinin başçısıdır. Eldar Əzizovun 2 övladı var. Qızının uşaq bağçasının müdiri, oğlunun isə Heydər Əliyev Mərkəzinin direktorunun köməkçisi işlədiyi deyilir. E.Əzizovun Prezidentin etimad etdiyi məmurlardan olduğu söylənilir. Ümumiyyətlə, Rusiya ilə əlaqələrin indiki səviyyəsi diplomatik korpusda hansı dəyişiklikləri zəruri edir? E.Əzizovun səfir olmaq şansı varmı?

**Milli Cəbhə Partiyasının sədri, deputat Razi Nurullayevin "Yeni Müsavat"a bildirdiyinə görə, yeni səfir Rusiyanı yaxşı tanımalıdır. R.Nurullayevin fikrincə, səfir olacaq həmin diplomat ilk növbədə Rusiya-Azərbaycan münasibətlərini bilməlidir:** "Eyni zamanda tanınmış bir şəxs olmalıdır ki, Rusiya cəmiyyətində və siyasi kluarlarında qəbul edilsin. Çünki Rusiya ilə münasibətlər xüsusidir və yeni səfirimiz güclü kadr olmalıdır ki, bu əlaqələrin ağırlığını çəkə bilsin". Deputat hesab edir ki, Rusiya-Azərbaycan əlaqələri inkişafdadır, dövlət başçısı bu münasibətlərin yaxşı olduğunu və region üçün müsbət tərəflərini də açıqlayıb. R.Nurullayevin sözlərinə görə, iki ölkə arasında siyasi-iqtisadi əlaqələr güclənir, ticarət dövriyyəsi artır, tərəfləri bir-birindən narazı salacaq addımlara yol verilmir.

**Sabiq dövlət müşaviri, professor Qabil Hüseynli hesab edir ki, səfir ölkənin rəsmi siyasətini ifadə edir. Onun sözlərinə görə, Rusiya-Azərbaycan münasibətləri iki ölkənin ali rəhbərləri səviyyəsində müəyyən olunur və səfirin buradakı rolu özəl bir missiya daşımır. Q.Hüseynli səfir təyinatının Prezidentin səlahiyyətində olan məsələ adlandıraraq hər hansı ad çəkməyi doğru saymır:** "Yalnız onu deyə bilərəm ki, təcrübəli, Rusiya siyasətini, Rusiyadakı ictimai-siyasi mühiti yaxşı bilən diplomata üstünlük verilməsi yaxşı olardı. Polad Bülbüloğlu Rusiyada tanınmış və sevilən bir insan idi. İndi sanballı, çəkisi olan və diplomatik təcrübəyə malik şəxsin təyin olunmasına diqqət yetiriləcək. Hər halda, hazırda Bakı-Moskva əlaqələri rəvandır, yaxşı dövrünü yaşayır, tərəflər bir çox sahələrdə əməkdaşlığı inkişaf etdirirlər, strateji müttəfiqlik bəyannaməsinin ruhuna uyğun addımlar atmağa çalışırlar. Ona görə də sülhməramlı kontingentin regionu vaxtından tez tərk etməsi prosesi ağrısız oldu. Həmçinin Ukrayna münaqişəsində Azərbaycanın mövqeyi kifayət qədər ayıq-sayıq davranışdır".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Baş nazirdən hərbi komissarlarla bağlı qərar




**Baş nazir Əli Əsədov "Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) əməkdaşlarının sağlamlığının mühafizəsi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" qərar imzalayıb.**

Qərarla SHXÇDX-nin əməkdaşlarına (Xidmətdən pensiyaya çıxmış əməkdaşlar da daxil olmaqla) və onların ailə üzvlərinə tibbi xidmətin göstərilməsi, o cümlədən xəstəliklərin profilaktikası, ilkin tibbi-sanitariya yardımı, təcili və təxirəsalınmaz tibbi yardım, ambulator-poliklinik və stasionar tibbi yardım, onların tibbi reabilitasiyası və sağlamlaşdırılmasının təmin edilməsi "Hərbi qulluqçuların statusu haqqında" Qanunun və "Hərbi xidmət keçmə haqqında Əsasnamə"nin tələbləri nəzərə alınmaqla, Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən həyata keçiriləcək.

Maliyyə Nazirliyinə tapşırılıb ki, qərarın icrası ilə əlaqədar müvafiq vəsaitin hər il növbəti ilin dövlət büdcəsi layihəsinin tərtibi zamanı SHXÇDX-nin DSX ilə razılaşdırılmış təklifləri əsasında DSX-nin saxlanılması xərclərinin tərkibində nəzərdə tutulmasını təmin etsin.

Qərar 2024-cü il sentyabrın 1-dən qüvvəyə minir.

# Bakıda adına biznes mərkəzi olan banqladeşli baş nazir oldu

## Muhammad Yunus Banqladeşin müvəqqəti hökumətinə rəhbərlik edəcək - bu ilin martında UNEC rektorunun müşaviri təyin edilib



**Nobel Sülh mükafatçısı Muhammad Yunus Banqladeşin müvəqqəti hökumətinə rəhbərlik edəcək. Qərar prezident Məhəmməd Şahabuddin və əvvəlki baş nazir Şeyx Həsinəni devirən tələbə hərəkatının koordinatorlarının iclasında qəbul edilib.**

Tələbələr ölkədə hərbi rəhbərliyin qurulmasına razı olmadıqlarını, ona görə Məhəmməd Yunusun namizədliyini təklif etdiklərini deyiblər. Yunus ölkənin belə çətin dövründə tələbələrin təklifindən imtina etməyəcəyini bildirib.

Qeyd edək ki, Yunus Nobel Sülh Mükafatı laureatıdır.

Banqladeşin hökumət başçısı ölkədən qaçdıqdan sonra bu ölkənin parlamenti də buraxılıb.

Baş nazir Şeyx Həsinə hökumətə qarşı bir neçə gün davam edən etiraz aksiyaları və qarşıdurmalardan sonra vəzifəsindən istefa verib və Hindistana qaçıb. Qarşıdurmalarda 400-ə yaxın şəxs ölüb, yüzlərlə insan xəsarət alıb.

Həsinənin istefasından sonra aksiyalar zamanı həbs edilmiş əvvəlki baş nazir Xalidə Ziya və tələbələr də azadlığa buraxılıblar, komendant rejimi ləğv edilib.

Qeyd edək ki, hökumətə qarşı etiraz aksiyaları dövlət qulluğuna vakansiya kvotası - kvotanın yeni məzun olmuş tələbə sayından dəfələrlə az olması ilə əlaqədar idi. Bakupost.az xəbər verir ki, nüfuzlu ictimai xadim, sosial biznes və "mikrokreditin atası" adlandırılan Muhammad Yunus ilk dəfə 2016-cı ildə Bakıda Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) qonağı olub. "Sosial biznes - inkişafa gedən yol" mövzusunda beynəlxalq konfransda çıxış edən Muhammad Yunusa UNEC-in Fəxri doktoru adı verilib və müvafiq diplom təqdim edilib. Konfrans çərçivəsində UNEC-də Yunus Sosial Biznes Mərkəzi (YSBM) yaradılıb.

2024-cü ilin mart ayında Nobel mükafatçısı Muhammad Yunusun iştirakı ilə UNEC-də yaradılmış Yunus Sosial Biznes Mərkəzinin açılışı olub. Tələbələr arasında sosial biznes ideyasını təşviq etmək məqsədilə yaradılan həmin mərkəzdə professor Muhammad Yunus ilk mühazirəsini də söyləyib.

2024-cü il mартın 29-da isə Nobel Sülh Mükafatı laureatı, professor Məhəmməd Yunusun UNEC-in missiyasına töhfə vermək istəyini əsas tutaraq o, UNEC rektorunun müşaviri təyin edilib.

❑ **"Yeni Müsavat"**

# “Nizami” stansiyasında 11 aylıq təmir



"Bakı Metropoliteni"nin “Nizami” stansiyasında aparılan təmir işləri davam etdirilir.

Belə ki, stansiyada platformanın tağtavanında sağlamlaşdırma və gücləndirmə tədbirləri həyata keçirilir.

Ötən ilin sentyabr ayından etibarən korroziyanın təmizlənməsi və axıntıların ləğv olunması ilə bağlı işlər aparılır. Bəs sözügedən işlər nə zaman yekunlaşacaq?

“Bakı Metropoliteni” QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov Cebheinfo.az-a açıqlamasında bildirib ki, stansiyada təmir işləri davam etdirilir:

“Sərnişinin təhlükəsizliyinə və ya hərəkətinə mane ola biləcək hər hansı problem yoxdur. Çünki işlər yalnız gecə növbəsində görülür. Texnoloji proseslərin ardıcılığı elə istiqamətdə qurulub ki, hər gecə görülən işlərdən sonra səhər sərnişin daşıma tam təmin oluna bilsin. Bu səbəbdən planlamasından tutmuş hər bir məsələ xüsusi qaydada diqqətdə saxlanılır. Platformanın tağtavanında sağlamlaşdırma və gücləndirmə işləri, korroziya ilə bağlı məsələlər və axıntıların qarşısının alınması üçün addımlar atılır”.

**Həmsöhbətimiz işlərin nə üçün hələ yekunlaşmadığı barədə də danışıb:** “Nəzərə almaq lazımdır ki, biz həmin işləri sadəcə gecə növbəsində görürük. Gecə saat 00:00-da qapılar bağlansa da, stansiya öz işini dayandırmır. Həmin vaxtdan sonra da qatarlar hərəkət edir.

Yalnız gecə saat 01:00-dan sonra bütün metro xətlərindəki gərginlik çıxarılır. Ondan sonra isə depodan “Nizami” stansiyasına təmir işləri üçün lazım olan avadanlıqlar və işçi qüvvəsi göndərilir. Səhər təxminən 04:00 radələrində iş tamamilə başa çatmalıdır. Bu isə o deməkdir ki, artıq qatarlar hərəkətə başlayır. Yəni ona qədər işlər yekunlaşdırılmalıdır. Hər gecə təxminən 1-2 saat iş prosesi gedir".

Bəxtiyar Məmmədov “Nizami” stansiyasında aparılan təmir işlərinin 2025-ci ildə başa çatacağını deyib:

“Stansiyada təmir işlərinin 2025-ci ildə başa çatdırılması gözlənilir. Bütün məsələləri nəzərə almaqla bu işlərin gələn il bitəcəyini deyə bilərik. Amma buna baxmayaraq, işlər tez yekunlaşarsa, gözləniləndən daha erkən də ola bilər”.

# Dollar alışı kəskin artdı, kasıb təbəqə narahat oldu

## 2026-cı ilə qədər USD/AZN məzənnəsinin 1,7 səviyyəsində qalacağı proqnozlaşdırılır



**Azərbaycanda dollara tələbat kəskin artıb. Mərkəzi Bankın məlumatına əsasən, 2024-cü ilin yanvar-iyul aylarında Azərbaycan Mərkəzi Bankında keçirilən valyuta hərraclarında 4,1 milyard dollar məbləğində satış olub. Bu, keçən ilin eyni dövrü ilə müqayisədə 2,3 dəfə çoxdur. Təkcə bu ilin iyul ayında valyuta satışının məbləği 597,1 milyon dollar təşkil edib. Bu isə ötən ilin iyul ayı ilə müqayisədə 2,2 dəfə çox deməkdir. Qeyd edək ki, Mərkəzi Bankda keçirilən mətbuat konfransında qurumun sədri Taleh Kazımov deyib ki, valyuta hərraclarında tələbatın 2 dəfədən çox artması əsasən dövlət büdcəsində xərcləmələrlə bağlıdır.**

**İqtisadçı-ekspert Xalid Kərimli** “Sputnik Azərbaycan”a deyib ki, ölkəmizdə dollara tələbatın artmasının əsas səbəbi məhz dövlət büdcəsində investisiya xərcləri ilə bağlıdır: “Bu il dövlət büdcəsinin investisiya xərclərində ötən illə müqayisədə əhəmiyyətli artım var. Dövlət həm Qarabağ və Şərqi Zəngəzurun bərpasına, həm də COP29 ilə bağlı layihələrə, tikintiyə ciddi investisiyalar qoyur və bərpa etmədə idxal komponenti mühümdür. Dövlət büdcəsində bu istiqamətlərdə xərclər artdıqca idxal da artır. Çünki yerli istehsal obyektiv və subyektiv səbəblərdən aşağı səviyyədədir. Həm istehlak bazarında, həm də investisiya qoyan zaman istifadə olunan malların əksəriyyəti xaricdən gətirilir. Bu baxımdan, dövlət investisiya layihələri artdıqca idxal da artır. Ölkədə dollara tələbatın artmasının əsas səbəbi budur. Yəni burada əhalinin şəxsi məqsədlər üçün dollar alışının artımından söhbət getmir”.

Ekspert deyib ki, bu il ölkədə iqtisadi artım ötən illə müqayisədə daha çoxdur. İqtisadi aktivlik idxalın artmasına gətirib çıxardır. İdxalın artması da dollara tələbatı artırır. Ekspert növbəti aylarda ölkədə dollara tələbatın kəskin artacağını gözləmir.

Xatırladaq ki, Azərbaycan Mərkəzi Bankı inflyasiyanın qarşısını almaq məqsədilə 2017-ci ildən milli valyutanın ABŞ dollarına qarşı məzənnəsini 1,7 manat səviyyəsində müəyyən edib.

İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş makroiqtisadi proqnozlarda 2023-2026-cı illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi 1,7 manat səviyyəsində götürülüb.

“S&P Global Ratings” beynəlxalq reytinq agentliyi də 2026-cı ilə qədər USD/AZN məzənnəsinin 1,7 səviyyəsində qalacağını proqnozlaşdırır. Maraqlıdır ki, dollara tələbat artan kimi daha çox aztəminatlı təbəqə narahat olur ki, bu da səbəbsiz deyil. Çünki inflyasiya və manata hər hansı təhlükə ən çox onlara təsir edir.

**İqtisadçı-ekspert Eldəniz Əmirov** mövzu ilə bağlı “Yeni Müsavat”a deyib ki, dollara olan tələbin kəskin şəkildə artmasının əsas səbəbi bilavasitə Azərbaycanın işğaldan azad olunan ərazilərində aparılan işlərlə əlaqədardır: “Bütün hallarda bunlar da bilavasitə dövlət büdcəsinin xərclərini artırır. Bu da daha çox idxala əsaslanan bir prosesdir. İdxalın kəskin şəkildə artması təbii olaraq dollara olan tələbi də artırır. O ki qaldı aztəminatlı təbəqənin dollara olan tələbin artmasından narahatlığına, bu başa düşüləndir. Çünki dollara artan tələb, eyni zamanda manatın məzənnəsi ilə bağlı ciddi suallar ortaya çıxarır. Nə zaman ki, dollara olan tələbi qarşılamaqda çətinlik yaranacaq o zaman manatın ucuzlaşması məsələsi daha da aktuallaşacaq. Amma hazırkı məqamda dollara olan tələbin artmasına rəğmən onu qarşılamaq üçün hər hansı bir ciddi çətinlik yoxdur. Mərkəzi Bankın valyuta ehtiyatları və neftin qiyməti bu prosesi neytral şəkildə idarə etməyə imkan verir. Bu baxımdan, 2024-cü ilin sonuna qədər hər hansı bir devalvasiya təhlükəsi qəti gözləmirəm. Lakin sonrakı dönəmlərdə qeyd etdiyim amillərdən asılı olaraq, yəni neftin qiymətinin kəskin aşağı düşməsi və bu aşağı düşmənin uzun müddət davam etməsi, eyni zamanda dollara olan tələbin sistemli artması nəticədə manatın ucuzlaşması üçün ciddi əsas yarada bilər”.

**Milli Məclisin VI çağırış deputatı Vüqar Bayramov neftin ucuzlaşmasının məzənnəyə hansı formada təsir edəcəyi məsələsinə münasibət bildirib:** “Neftin dünya bazar qiymətində azalma davam edir. Brent markalı neft 2024-cü ildə ən aşağı qiymətə təklif olunur. Hazırda 1 barel neftin qiyməti 76 dollardır. Tələbin azalması neft bazarına birbaşa təsir göstərərək volatilliyi artırıb. Digər tərəfdən, bu il ABŞ-da quyuların sayının azalmasına baxmayaraq neft hasilatında artımlar müşahidə edilir. Hazırda Birləşmiş Ştatlarda gündəlik neft hasilatı 13.3 milyon bareldən çoxdur.

Neftin dünya bazar qiyməti Azərbaycana daxil olan valyutanın həcmi baxımdan vacibdir. Azərbaycan ixracatının təxminən 80 faizini neft və neft məhsulları təşkil edir. Bu baxımdan neftin qiyməti bir tərəfdən gəlirlərimiz digər tərəfdən ölkəyə valyutanın daxil olması baxımından əhəmiyyətlidir.

2024-cü ilin dövlət büdcəsinə edilən dürüstləşmələrdən sonra əsas maliyyə sənədində neftin qiyməti 60 dollardan 75 dollaradək artırıldı. Hazırda dünya bazarında neftin qiyməti büdcədəki qiymətdən cüzi artıqdır. Doğrudur, 2024-cü ilin geridə qalan ayları üzrə neftin orta qiymətini nəzərə aldıqda mövcud bazar tarazlığı fiskal gəlirlərimiz üçün risk formalaşdırmır. Amma sözsüz neft ölkəyə valyuta daxil olmasına xüsusi təkan verdiyi üçün bu baxımdan 2024-cü ildə ölkəyə daxil olan vəsaitin həcmi, eləcə də tədiyyə balansımızın vəziyyəti birbaşa neftin dünya bazarının qiymətindən asılı olacaq.

Neftin qiymətinin manatın məzənnəsinə təsirlərinə gəldikdə isə Mərkəzi Bankın 2024-cü il üçün pul siyasətinin əsas istiqamətləri barədə bəyanatında da bu ildə də neft gəlirlərimizin manatın məzənnəsinə təsir edən əsas faktor olacağı vurğulanır. Fiskal sektorun valyuta təklifi və tələbi, eləcə də iqtisadi subyektlərin məzənnə gözləntiləri valyuta bazarındakı tarazlığa təsir göstərən əsas amillər kimi qruplaşdırılsa da, aydındır ki, bu indikatorlar da birbaşa enerji bazarındakı volatillikdən asılıdır. Mərkəzi Bankın məzənnə siyasəti üzrə əməliyyat hədəflərinə nail olmaq üçün valyuta bazarına zəruri hallarda müdaxilə edəcəyini bildirməsi isə ondan xəbər verir ki, enerji bazarında ciddi volatillik baş verəcəyi halda valyuta ehtiyatlarımızdan istifadə edilə bilər. Bu isə o deməkdir ki, manatın məzənnəsi yenə də birbaşa Mərkəzi Bankın mövqeyindən asılı olacaq".

❑ **Afaq MİRAYİQ,
“Yeni Müsavat”**

# 6 milyon 334 min nəfərə cəmi 125 deputat

## Budəfəki parlament seçkilərində Azərbaycanda seçicilərin sayı rekord həddə çatıb; bu gün 1 deputat 81 min nəfəri təmsil edir

**Sentyabrın 1-də Azərbaycanda növbədənkənar parlament seçkiləri keçiriləcək. Qanunvericiliyə görə 18 yaşı tamam olmuş hər kəs aktiv seçki hüququna malikdir. Yəni seçki günü yaşı 18-dən yuxarı olan hər kəs səs verə bilər. Məcəllədə bildirilir ki, məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslər bu hüquqdan məhrumdur. Qeyd edək ki, növbədənkənar parlament seçkilərində 1 030 nəfərin deputatlığa namizədliyi qeydə alınıb.**



Yeri gəlmişkən, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Xankəndi şəhərində də seçki məntəqəsi yaradıldığını bildirib: "Biz orada gözəl məntəqələr yaratmışıq. Biz yenə də orada yaşayan erməni əsilli vətəndaşlarımıza fərq qoymuruq, seçkidə iştirak edə bilərlər. İlk Milli Məclis seçkiləridir ki, biz onu Zəfər seçkiləri də adlandıra bilərik. Növbəti dəfə Azərbaycanın bütün suveren ərazisində seçki məntəqələrində səsvermə keçirəcəyik. Azad edilmiş ərazilərdə 34 daimi seçki məntəqəsi var, əlavə 5 günlük səyyar seçki məntəqələri yaradacağıq".

Məlumata görə, budəfəki parlament seçkilərində Azərbaycanda seçicilərin sayı rekord həddə çatıb. Belə ki, 2024-cü il iyunun 28-nə olan məlumata əsasən, Azərbaycanda səsvermə hüququ olan 6 milyon 334 min 444 nəfər seçici var.

Sonuncu parlament seçkilərində seçici siyahılarına 5.4 milyon nəfərə yaxın şəxsin adı daxil edilmişdi. Beləliklə, sonuncu parlament seçkiləri ilə müqayisədə bu il seçicilərin sayı təxminən 18 faiz artıb.

Aydın görünür ki, bu qədər seçici üçün 125 deputat çox azdır. Məsələn, Ermənistan əhalisi bizdən üç dəfə azdır, amma 131 deputatı var. 10 milyonluq Azərbaycanda minimum 150, maksimum 250 deputat olmalıdır. Ancaq bunu referendumla həll etmək mümkündür.

Xatırladaq ki, 1995-ci ildə qəbul edilən Azərbaycan konstitusiyasına görə, Milli Məclisdə 125 deputat təmsil olunur. Həmin il konstitusiya layihəsinin hazırlanması zamanı parlamentdə deputat yerlərinin sayı geniş diskussiya doğurmuşdu. Milli Məclisin 100, 150, 200 və s. deputatdan ibarət olması barədə mülahizələr irəli sürülmüşdü. Müzakirələrdən sonra ölkə rəhbərliyi 125 rəqəminin üstündə dayandı. Həmin vaxt qonşu Gürcüstanda parlament 235 deputatdan, Ermənistanda isə 131 nəfərdən ibarət idi.

Əgər 1995-ci ildə Azərbaycanda parlamentin 1 deputatı 61 min nəfəri təmsil edirdisə, bu gün 1 deputat 81 min nəfəri təmsil edir.

Bəziləri hesab edir ki, deputatların sayının artırılmasının müsbət və mənfi tərəfləri var. Belə ki, çox sayda deputat əhalinin parlamentdə daha yaxşı təmsil olunmasına, vətəndaşların qanunvericilik prosesinə cəlb edilməsi üçün geniş imkanların yaranmasına səbəb ola bilər. Üstəlik, böyük parlament daha çox ixtisaslaşmış komitə və işçi qruplarının yaranmasına gətirib çıxarar ki, bu da məsələlərin dərindən təhlilinə və uğurlu qərarların qəbul edilməsinə zəmin yaradar. Bununla belə, deputatların sayının çoxaldılması parlament xərclərinin artırılmasına səbəb ola və qanunverici orqanının səmərəliliyinə mənfi təsir edə bilər.

**Mövzu ilə bağlı Milli Məclisin VI çağırış deputatı Fazil Mustafa "Yeni Müsavat"a danışıb. F.Mustafa deyib ki, əhalinin sayı nəzərə alaraq, deputatların sayı artırıla bilər**: "Lakin burada əsas səlahiyyət məsələsidir. Qanunverici orqanın səlahiyyətləri müəyyən dərəcədə genişlənməlidir ki, deputatlar cəmiyyət həyatında səlahiyyətlərinə uyğun daha çox aktiv rol ala bilsinlər. Bunun üçün müəyyən dərəcədə qanunvericilikdə olan məhdudiyyətlər ortadan qalxmalıdır. Belə ki, deputat müəyyən məsələlərin həlli üçün müdaxilə etmə imkanlarına sahib olmalıdır. Bir çox hallarda biz dövlət qurumlarına məktub göndərməkdən başqa hansısa funksiyanı yerinə yetirə bilmirik. Bu, olduqca vacibdir. Əgər belə bir məsələ öz həllini taparsa, hesab edirəm ki, bu kimi işlərdə hər hansısa bir irəliləyiş əldə etmək olar. Əks halda, sayın çoxluğu nəyisə yaxşı mənada, pozitiv dəyişməsinə gətirib çıxartmayacaq".

**AĞ Partiya sədri Tural Abbaslı da qeyd edib ki, 10 milyon əhali üçün 125 deputat yeri azdır:** "125 deputat Azərbaycan əhalisi 7 milyon olanda müəyyən olunmuşdu və bu gün isə əhalinin sayı 10 milyondur. Bu o deməkdir ki, əhali ən azı 7 milyonun yarısı qədər artıb. Yəni əgər 7 milyona 125 deputat idisə, bu gün həmin hesablama ilə azı 60 nəfər artırılmalıdır. Bu gün bir deputatın seçici sayı təxminən 60 min nəfərdir. Bundan əvvəl isə bu say 35-40 min idi. Təbii ki, bir deputatın bu qədər seçici ilə maraqlanması, yaxud xalqın nəbzini tutması fiziki baxımından da mümkün deyil. Bu baxımdan hesab edirəm ki, parlamentdə təmsil olunan deputatların sayı minimum 151 nəfər olmalıdır. Deputat sayının çox olmasının mənfi tərəfi yoxdur. Yəni deputat nə qədər çox olarsa, bir o qədər çox insanlarla ünsiyyət, ələqə olar.

Ümid edirik ki, bundan sonrakı seçkilərdə referendumda say tərkibi artırılar".

Qeyd edək ki, Mərkəzi Seçki Komissiyasının (MSK), Medianın İnkişafı Agentliyinin (MEDİA), Audiovizual Şura və Mətbuat Şurasının təşkilatçılığı ilə seçkiqabağı təşviqat imkanları və media subyektlərinin Milli Məclisə seçkilərdə fəaliyyətinin əsaslarına həsr olunan müşavirə keçirilib.

Müşavirədə aidiyyəti qurumların nümayəndələri və media subyektlərinin rəhbərləri iştirak edib.

**Müşavirədə MSK sədri Məzahir Pənahov çıxışında bildirib ki, media nümayəndələri daim prosesin içərisində olduğundan seçkini obyektiv işıqlandırmalıdırlar**: "Milyonlarla insanın iştirak etdiyi hansısa tədbiri dünyanın istənilən yerində səhvsiz keçirmək mümkün deyil. Bu cür tədbirlərdə kimlərsə bilərəkdən və ya bilməyərəkdən, əksəriyyət isə bilməyərəkdən hansısa qanun pozuntusuna yol vermiş olur. Hansısa məntəqədə qanun pozuntusu baş veribsə, həmin məntəqənin nəticələri ləğv olunmalıdır. Burada qəbahətli heç nə yoxdur. Dünyanın hər yerində bu, belədir. Qanun pozuntusuna yerində baxmaq və qərar çıxarmaq lazımdır".

**Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov isə qeyd edib ki, seçkilərin mediada işıqlandırılması prosesini operativ izləmək üçün Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən monitorinq həyata keçiriləcəkdir:** "Bu da dövlətimiz üçün mühüm əhəmiyyət kəsb edən tədbirlər ərəfəsində mediamızın məsuliyyətini, baş verənlərə çevik reaksiyasını daha da artırır. Təcrübə göstərir ki, seçkilər zamanı ölkəmizin informasiya mühitinə kənardan yönləndirilən təhdidlər artır, informasiya manipulyasiyasının bütün formalarının sistemli şəkildə tətbiq edilməsi halları müşahidə olunur. İctimai rəyi çaşdırmağa, ölkəmiz haqqında mənfi rəy yaratmağa yönəlmiş bu kimi hallara qarşı sayıqlığımızı daha da artırmalıyıq.

Medianın İnkişafı Agentliyi qərəzli və sistemli şəkildə ölkəmizə qarşı yönəlmiş feyk xəbərlərin vaxtında, operativ qaydada aşkarlanıb ifşa olunması üçün digər müvafiq dövlət qurumları ilə sistemli iş aparmaqdadır. Bu qəbildən olan təhdidlərin təsir dairəsinin azaldılmasında Azərbaycanın ciddi media subyektlərinin çevik dəstəyi həmişə vacibdir".

Audiviziual Şuranın sədri İsmət Səttarov isə seçkiqabağı təşviqatla bağlı Seçki Məcəlləsinin tələblərini müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

## "Seçkidə ümumi bir liderə ehtiyac var" - Etibar Məmmədov



**Rusiya hərbçiləri artıq Ermənistanın Zvartnots hava limanından da çıxdı... Belə fikirlər var ki, Kremlin Qafqazdakı varlığı payızda Ermənistanda baş verəcək proseslərlə yanaşı, oktyabrın sonunda Gürcüstanda keçiriləcək parlament seçkilərindən də xeyli asılıdır... Görəsən, bu fikir nə dərəcədə gerçəyə uyğundur?..**

Azərbaycan Milli İstiqlal Partiyasının fəxri lideri, istiqlalçı deputat Etibar Məmmədov mövzu ilə bağlı Moderator.az-a açıqlamasında bunları söyləyib: "Təbii ki, hələ istər Ermənistandakı proseslərin, istərsə də Gürcüstandakı seçkilərin nə ilə nəticələnəcəyini söyləmək çətindir. Ancaq bütün hallarda Rusiyanın Güney Qafqazdakı mövqeləri zəifləyib və Kreml Azərbaycandan asılı vəziyyətə düşüb. Biz bunu dəyərləndirməliyik. Və Azərbaycan üçün mümkün qədər çox divident qazandırmalıyıq. Əsas odur ki, Rusiya hərbi birləşmələri Azərbaycan ərazisindən çıxıb. Və onların qayıtmaq ehtimalı çox aşağıdır və demək olar ki, yoxdur. Belə bir vəziyyətdə isə biz Rusiyanın ABŞ və Fransa ilə nüfuz davasından yalnız qazana bilərik...

Konkret Gürcüstandakı parlament seçkilərinə gəldikdə, ola bilsin ki, seçkilərə az qalmış prezident Salome Zurabişvili həbsdə olan eks-prezident Mixail Saakaşvilini əfv etsin. Artıq bugünlərdə belə informasiyalar dolaşmaqdadır. Və belə olan halda müxalif qüvvələrin imkanları çox genişlənəcək. Çünki hazırda Gürcüstandakı demokratik qüvvələrin ümumi bir liderə ehtiyacı var. Xüsusən də həbsdən çıxan lider seçkilərin nəticələrinə çox təsir göstərə bilər..."

## Pulsuz efir vaxtı nə qədər müəyyən edilib?

**"Seçkiqabağı təşviqatda ən böyük məsuliyyət ictimai yayımçının üzərinə düşür".**

Bunu bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin Milli Məclisə seçkilərdə fəaliyyətinin əsaslarına həsr olunmuş müşavirədə çıxışı zamanı Audiovizual Şuranın sədri İsmət Səttarov deyib.

Onun sözlərinə görə, dövlətə məxsus olan yayımçılar vasitəsilə təşviqat aparılmır: "Seçkiqabağı təşviqat üçün ayrılan pulsuz efir vaxtının ümumi həcmi həftədə 3 saatdan az olmamalıdır".

Sədr bildirib ki, özəl yayımçılar bu məsələdə sərbəstdirlər: "Onlar seçkiqabağı təbliğatla bağlı məlumatların yayımlanmasına məcbur edilə bilməzlər".



# Beynəlxalq soyğunçuluq

Zamin HACI
zaminhaci@gmail.com

**Təbii ki, NATO nümayəndəliyimizə ucuz saat taxıb gedə bilməzdik. Ad-sanımız, şöhrətimiz vardır. Lap istəyirsən səni ora göndərən özü 500 manatlıq saat taxsın. Sən 90 minlik saatla bayıra çıxmağa məcbursan. Əvvəl evin çölü, sonra içi. Aləmi bəzər, özü lüt gəzər. Bu "aləm" temasına az sonra qayıdarıq.**

Mənim yadıma gəlir ki, bizim NATO ilə münasibətlərimizdə tarixən belə əlləm-qəlləm işlər olmuşdur. Haradasa 15-20 il qabaq, səhv etmirəmsə, 2006, ya da 2007-ci ildə NATO nümayəndəmiz ümumiyyətlə aradan çıxmışdı. Xaricdən sığınacaq istəmişdi. İndi də nümayəndəmizi günün günorta çağı Brüsseldə divara dirəyib soyublar. Deməli, NATO-dan bizə xeyir-zad yoxdur. Heyf Kosovoda, Əfqanıstanda çəkdiyimiz əziyyətlərdən. Əgər NATO nümayəndəmizi qoruya bilmirsə, gələcəkdə bizi necə qoruyacaq? (Deyilənə görə, NATO müqaviləsində belə bənd var, üzvlərdən hansınasa hücum bütün başqa dövlətlərə də hücum sayılır. Əgər bizim adamın "Roleks"i əkişdirilibsə, bu, bütün NATO nümayəndələrinin "Roleks"lərini əkişdirmək də sayılırmı? Əlaqədar orqanlardan cavab gözləyirəm).

Ümumiyyətlə, son çağlar Qərbdə bizə qarşı təzyiqlər artmışdır. Londonda məhkəmə Beynəlxalq Bankın əski müdiri Cahangir Hacıyevin arvadı Zamirə xanımın qolf sahəsini və malikanəsini - ümumi dəyəri 30 milyon dollar imiş - müsadirə elədi. Bunu auksionda satacaqlar, pulun 70 faizi ingilis büdcəsinə keçəcəkdir. Qalan 30 faiz də Zamirə xanıma veriləcək.

Mən bir şeyi anlamadım, bəs buradan bizim - Azərbaycanın xeyri nədir? Əgər əmlakın qeyri-qanuni ələ keçməsi, Azərbaycandan oğurlanması sübuta yetibsə, pullar dövlət büdcəmizə qaytarılmalı deyildimi? Yoxsa ingilis məhkəməsi "oğrudan oğruya halaldır" prinsipini üstün bilərək oğurluq pulları qapazlamağa çalışır? Bax buna deyərlər nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım!

Bu yerdə "Çeşmə" satirik qəzetinin 1990-larda yazdığı lətifənin yeridir, çünki "qolf"dan bəhs edəndə onu mütləq xatırlamalı oluruq. Deyir, bir gün Elçibəy, İsa Qəmbər və Etibar Məmmədov yığışır, qərara gəlirlər qolf oynasınlar. Elçibəy deyir: "Qolf çubuqları məndən". İsa Qəmbər deyir: "Toplar da məndən". Etibar Məmmədov incik-incik deyir: "Onda mən oynamıram".

Belə maraqlı mətbuatlarımız var idi... İndi Zamirə xanımın da qolf macərasının sonu gəlmişdir. Hacı Məmmədov girov götürəndə heç bu qədər ziyana düşməmişdilər. Ana yurdun qədrini belə bilərsiniz. Nazim Hikmət bu temada yazmışdır: "İnsan olan vatanını satar mı? Suyun içip ekmeğini yediniz. Dünyada vatandan aziz şey var mı? Beyler, bu vatana nasıl kıydınız?"

Hərçənd Zamirə xanımın vəkilləri yaxşı işləyib onu Cahangir Hacıyevdən boşatdıra bilsəydilər bəlkə əmlak əldən getməzdi. Bu üsula təzəlikcə başqa bir məşhur banditimizin ailəsi əl atmışdır. Generalı tutub mal-mülkü müsadirə ediblər, indi arvadı generaldan boşanıb, haqqı çatan mülkləri istəyir. Guya generalın bu şeylərdən xəbəri yoxdur, arvadın halal qazancı imiş. Məndə olan məlumata görə, həm Ağır Cinayətlər, həm Ali Məhkəmədə bu boşanma əhvalatını eşidən bir neçə hakimin gülməkdən qarnı cırılmışdır, çünki bizdə Femida xalaya hələ belə primitiv kələk cəhdi olmayıbdır.

Zamirə Hacıyevanın qolf sahəsini və malikanəsini müsadirə qərarını Böyük Britaniyanın Milli Cinayət Agentliyi (NCA) verib. Bu, NCA-nın Zamirə xanıma qarşı ilk qərarı deyil. Daha əvvəl onlar keçmiş bankirin xanımının barmağından 1,5 milyon dollarlıq üzüyü çıxarmışdılar. Üzüklə bərabər 500 min dollarlıq başqa qızıl-zinət əşyaları da alınmışdı.

Rəsmən arvadı soymaq deyilmi? Hərçənd arvad da elə-belə arvad deyil, oradakı "Harrods" univermağından 21 milyon dollarlıq alver edərək yerli qəzetlərin qələminə düşmüşdü.

Sən Mamedi soyursan, Con da tutur səni soyur. Bəlkə ədalət elə budur?



# Putinin köməkçisi Bakıya niyə gəlmişdi?

## Şoyqunu müşayiət edən şəxslər arasında İqor Levitinin də olmasına səbəb...

**Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun və onu müşayiət edən şəxslərin - xarici işlər nazirinin müavini Mixail Qaluzinlə bərabər prezident Putinin köməkçisi İqor Levitinin də olması bu ölkənin mediasında ciddi müzakirə mövzusudur.**

Bildirilir ki, İqor Levitinin Bakıdakı danışıqlarda yer alması Şimal-Cənub Nəqliyyat Dəhlizinin əsas müzakirə mövzularından biri olduğuna şübhə yeri qoymur. Çünki Rusiya prezidentinin köməkçisi məhz bu marşrut üzrə danışıqlar üçün görəvləndirilib, o, daha əvvəl də Bakıda bu mövzuda müzakirələr aparıb. "Vedemosti" nəşri yazır ki, Rusiya və Azərbaycan uzun illərdir ki, Şimal-Cənub dəhlizinin işə salınması üçün böyük səylər göstərirlər, lakin İran tərəfi ləngidir. "İndi beynəlxalq gündəm dəyişib və Tehran onu işə salmaqda maraqlıdır. Bakı və Moskva yerüstü keçidlərin tikintisində İran tərəfinə kömək edə bilər, çünki onlar bütün iştirakçılar üçün iqtisadi səmərə vəd edən yeni geoiqtisadi marşrut açacaq. Bu baxımdan, Şimal-Cənub layihəsinin ən mühüm tranzit dəhlizi olan ölkə potensial olaraq eskalasiya zonasına çəkildiyi üçün Rusiya "barmağını nəbzində saxlamalıdır"- nəşr yazır.

Şimal-Cənub Nəqliyyat Dəhlizi Hindistandan və Fars körfəzindən Rusiyaya, Qərbi Avropaya, Baltikyanı və Skandinaviya ölkələrinə məhsul daşımalarına imkan yaradan multimodal layihədir. Hazırkı ənənəvi marşrutdan 40% qısa və 30% ucuz olan Şimal-Cənub Nəqliyyat Dəhlizinin uzunluğu 7,200 kilometr təşkil edir. Layihənin əsas məqsədi alternativ marşrutlarla müqayisədə çatdırılma vaxtının azaldılması və qiymət baxımından effektivliyin artırılmasıdır. Fars körfəzi - Süveyş kanalı - Aralıq dənizi - Baltik dənizindən Helsinkiyə dəniz yolu ilə yüklərin daşınması 45-60 gün təşkil edirsə, Şimal-Cənub dəhlizi üzərindən daşımalar 20-25 gün ərzində həyata keçirilir.

İlk mərhələdə Azərbaycan ərazisindən hərəkət edəcək gözlənilən yük nəqliyyatı dövrü 3 mln. ton, ikinci mərhələdə - 5-8 mln. ton, üçüncü mərhələdə isə 15 mln. ton təşkil edir.

Nəqliyyat dəhlizi Baltik dənizi - Rusiya - Azərbaycan - Hindistan marşrutu üzərindən keçir.

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov Rusiyanın nəhəng bir bazar olduğunu bildirdi:** "Azərbaycan tranzit qovşağında yerləşir. Bu nəqliyyat dəhlizi ölkəmiz üçün çox əhəmiyyətlidir. Bununla Azərbaycan beynəlxalq ticarət və yükdaşımalarda xüsusi rol oynaya bilər. Rusiya bazarının həcminə baxın. Eynilə cənubda İran bazarının və digər ölkələrin tutumuna baxın. Bu gün bir sıra Qərb şirkətləri artıq Rusiyaya qayıtmaq istəyirlər. Çünki Rusiya nəhəng bir bazardır. Eyni zamanda İran da, cənubdakı digər ölkələr də. Bu bilirsiniz nə deməkdir? Bu, yük daşınma həcminin gələcəkdə çoxluğu deməkdir. Yüklərin çoxluğu isə tranzit xərclərinin və ödənişlərinin çoxluğu deməkdir. Məhz bu, qeyd edilən istiqamətin bizim üçün iqtisadi faydasıdır. Təhlükəsizlik faydası nədir? Rusiya və İranın müasir beynəlxalq münasibətlər sistemində bir-birinə ciddi ehtiyacı vardır. Hər iki dövlətin Qərblə problemləri vardır. Elə bizim də Qərblə münasibətlərimiz sabit deyildir. Qərb bizdən neft-qaz idxal etməsinə baxmayaraq, bizə qarşı zaman-zaman Ermənistanın yanında olduğunu göstərir. Bizə qarşı sanksiya qəbul etməkdən danışır. Hətta Ermənistana silah da verir. Belə bir ortamda Azərbaycan İrana da, Rusiyaya da bir əlaqələndirici kimi lazımdır. Azərbaycana da bu lazımdır. Azərbaycan əslində yenə də balanslaşma siyasətinə keçir. Hamı ilə qarşılıqlı maraqlar əsasında tərəfdaşlıq münasibətlərində maraqlıdır. Nə üçün? Azərbaycan artıq bir vasitəçi kimi çıxış edə bilir. Belə ki, Azərbaycan Türkiyə ilə müttəfiqdir. Türkiyənin birbaşa ünsiyyətə girməkdə problemi olan ölkələr vardır. Tutaq ki, İsrail. Azərbaycan isə İsraillə tərəfdaşdır. Lazım olanda Azərbaycan müəyyən məsələlərdə vasitəçi ola bilər. Biz ərazi olaraq nəhənglərin ortasındayıq. Ona görə də bizə mobillik və şəbəkələrdə, yeni tranzit qovşaqlarında iştirak çox lazımdır. Bu həm də bizim özümüzün mal və xidmətlərimizin hərəkəti üçün zəmin formalaşdırır. Diversifikasiya edilmiş marşrutların varlığı bizim üçün də önəmlidir".

**Beynəlxalq münasibətlər üzrə şərhçi Şəhla Cəlilzadə İranın mütləq şəkildə İsrailə cavab verəcəyini proqnozlaşdırır:** "İran-İsrail arasında hərbi eskalasiya sadəcə regional deyil, qlobal təhlükəsizlik baxımından mühüm çağırışlar doğurur. Rəsmi Bakı isə hər zaman ən kəskin mövqe fərqləri olan tərəflərin danışıqlar apararaq ortaq məxrəcə gəlməsi üçün faydalı güzərgah olub. 2019-cu ildə NATO və Rusiya generalları Kurtis və Gerasimovun Bakı görüşünü, İsrail və Türkiyə arasında bir zamanlar mövcud gərginliyin azaldılmasında Bakının barışdırıcı rolunu (hazırda bu iki dövlət arasında münasibətlər yenə pozulmuşdur və Azərbaycan-Türkiyə siyasətləri İsrail məsələsində artıq uzlaşmırsa da) xatırlatmaq yerinə düşər. Hazırda İsrail-İran gərginliyi fonunda yenə Bakı mühüm güzərgah olaraq diqqət mərkəzindədir. Bunun bir sıra səbəbləri var: 1) Azərbaycanın həm İran, həm də İsraillə ciddi əməkdaşlığı vardır. 22 fevral 2022-ci il tarixli Moskva bəyannaməsi ilə Azərbaycan və Rusiya mühüm geosiyasi və geostrateji məsələlərdə uzlaşdırıcı danışıqlar aparmağı öhdəsinə götürüblər. 2) Azərbaycan-Rusiya-İran arasında Şimal-Cənub dəhlizinin açılması ilə bağlı ortaq mövqe və müvafiq razılaşmalar əldə olunub ki, hərbi eskalasiya, Cənubda yeni müharibə bu dəhlizin gələcəyini təhlükəyə ata bilər. Müqayisə, Rusiya-Ukrayna müharibəsi Rusiyadan Ukrayna vasitəsilə Avropaya gedən enerji və ticari yolların bağlanması ilə nəticələndi. Odur ki, Rusiyanın maraqları bölgədə yeni müharibədən yayınmaq, deskalasiyaya nail olmaqdır. Lakin nəzərə alaq ki, bütün bunlar İsrailin 1 apreldə İran konsulluğuna hücumu və İranın ilk dəfə öz ərazisindən cavab hücumları ilə müşayiət olundu. O zaman da 7 SEPAH rəsmisi, o cümlədən 2 general öldürülmüşdü, bu dəfə də Haniyənin ölümü İran üçün qırmızı çizgilərin keçilməsidir. Xatırlayaq ki, 27 sentyabra bizi sövq edən qəhrəman generalımız Polad Həşimovun öldürülməsi idi. Yəni hərbi və siyasi liderlərə qarşı açıq və birbaşa hücumlar cəzasız qalmır. Odur ki, İran da mütləq şəkildə İsrailə cavab hücumu edəcək. Lakin bütün qlobal vasitəçilər bu hücumun daha lokal olması, regional alovlanmaya səbəbiyyət verəcək qədər böyük olmaması yönündə təlqinlərdə bulunmaqdadır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 140 (8513) 9 avqust 2024

# Qərb "Xankəndi yolunu" yenə yanlış seçdi

## Bəzi dairələr guya dünyanın əsas mövzusunun Qarabağdan burunları belə qanamadan könüllü gedən ermənilər olduğunu gözə soxmağa çalışırlar



**Son günlər Qərbdən Qarabağdan könüllü köçüb getmiş ermənilər mövzusunda yenidən saxta gündəm yaratmaq cəhdləri müşahidə edilməkdədir. Bəzi dairələr Yaxın Şərqdə müharibə təhlükəsinin böyüdüyü bir vaxtda sanki dünyanın əsas mövzusunun Qarabağdan burunları belə qanamadan və könüllü gedən ermənilərin "problemi" olduğunu gözə soxmağa çalışırlar.**

ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin əsas müavini Yuri Kim Karneqi Sülh Fondunun təşkilatçılığı ilə bugünlərdə keçirilmiş "Cənubi Qafqazda yeni regional nizam üçün ABŞ-ın rolu" adlı tədbirdə Qarabağ bölgəsindən könüllü şəkildə köçüb getmiş ermənilərin qayıdış hüququ haqqında gen-bol məruzə edib.

Öz missiyasını başa vuran Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar da erməni canıyananlığı ilə seçilib. Toivo Klaar da açıqlamasında bildirib ki, rəsmi Bakı Qarabağ ermənilərinin "öz ata-baba yurdlarına" qayıtmasına kömək etməlidir, hətta guya bu, Azərbaycanın öhdəliyidir.

**Klaar diplomatik sayıqlığını itirərək qeyd edib ki, Bakı Qərbi Azərbaycan məsələsini dilə gətirir, lakin avropalı diplomatın fikrincə, bu mövzuları eyni müstəvidə nəzərdən keçirmək olmaz:** "AB bu məsələdə fikrini çox aydın bildirib. Mən də gözləyirəm ki, Qarabağ erməniləri normallaşma prosesinin bir hissəsi olacaq və onların öz bölgələrinə təhlükəsiz və ləyaqətlə qayıtmaları ilə bağlı Bakı ilə onlar arasında birbaşa danışıqlar aparılacaq. Azərbaycanın bununla bağlı öhdəlikləri var, mənə elə gəlir ki, bunu inkar etmir. Bəzən bu kontekstdə başqa məsələlər də gündəmə gətirilir, məsələn, "Qərbi Azərbaycan" deyilən məsələ. Mənim üçün bunlar tamamilə fərqli suallardır, onları qarışdırmaq olmaz. Birincisi, Qarabağ ermənilərinin öz ata-baba yurdlarına qayıtmasına şərait yaradılmalıdır ki, bu da Azərbaycanın öhdəliyidir. İkincisi isə əvvəllər Azərbaycanın başqa yerlərində, o cümlədən Bakıda yaşayan ermənilər və ya Ermənistanda yaşayan azərbaycanlılar məsələsidir".

Göründüyü kimi, Klaar regionda köçkünlük problemi və qayıdış hüququndan danışarkən bu hüququ müstəsna olaraq ermənilərə şamil edib. Ermənistandan qovulmuş azərbaycanlıların bu hüququnun olduğunu isə inkar etməyə çalışıb.

Xatırladaq ki, Ermənistandan zorla qovulmuş azərbaycanlıların qayıdış hüququ məsələsi barədə Qərbi Azərbaycan İcmasının ötən ilin aprel ayında ABŞ-ın dövlət katibi Antoni Blinkenə göndərdiyi məktub hələ də cavabsız qalıb.

Qərbin Qarabağdan könüllü köçüb getmiş ermənilər mövzusundan yenidən saxta gündəm yaratmaq cəhdlərinə səbəb nədir? "Ermənilərin öz ata-baba yurdlarına qayıtmasına şərait yaradılmalıdır ki, bu da Azərbaycanın öhdəliyidir" iddiasının arxasında nə dayanır?

**Deputat Azər Badamov "Yeni Müsavat"a açıqlamasında Azərbaycanın ona qarşı qərəzli yanaşanlara layiqli cavab vermək iqtidarında olduğunu söylədi:** "Qərb Cənubi Qafqazda sülhün və əməkdaşlığın yaranmasını heç cürə qəbul edə bilmir. Ona görə də birtərəfli şəkildə Ermənistanı silahlandırır, maliyyə təminatı verilir və bütün vasitələrdən istifadə etməklə yenidən vəziyyətin gərginləşməsinə çalışır. Qərbin Cənubi Qafqazda vəziyyəti gərginləşdirməyə çalışdığı mövzulardan biri də Qarabağdan könüllü getmiş ermənilərin qaytarılması ilə bağlıdır. Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə keçmiş xüsusi nümayəndəsi Toivo Klaar missiyasını başa vuranda da ermənilərin canıyananlığını nümayiş etdirərək deyib ki, rəsmi Bakı Qarabağ ermənilərinin "öz ata-baba yurdlarına" qayıtmasına kömək etməlidir, hətta guya bu, Azərbaycanın öhdəliyidir. Əvvəlcə onu qeyd etmək istəyirəm ki, Klaar özünə aid olmayan məsələlərə burnunu soxmamalıdır. Çünki onun Cənubi Qafqazda səlahiyyəti başa çatıb. İkincisi isə Ermənistanın özü ermənilərin Qarabağdan könüllü çıxmaları ilə razılaşıb və bu mövzunu dilə gətirmir. Üçüncüsü isə Azərbaycan Qarabağdan ermənilərə çıxmamalarını tövsiyə edib və vətəndaşlığımızı alaraq yaşamaqda davam edə biləcəklərinə çağırış etmişdi. Amma Ermənistan vəziyyəti normal qəbul etsə də, təəssüf ki, Qərb bunu qəbul edə bilmir və zaman-zaman ermənilərin Qarabağa qaytarılmasını gündəmə gətirir. Əslində Azərbaycan yenə də ermənilərin Qarabağa qayıtmasının əleyhinə deyil. Bunun üçün prosedur qaydalar var və qanuna uyğun şəkildə müraciət olunaraq vətəndaşlığımızı alaraq qayıda bilərlər. Amma Ermənistan da qərbi azərbaycanlıları üçün eyni hüququ tanımalı və qayıtmaq üçün şərait yaratmalıdır. Bu baxımdan, Ermənistan konstruktivlik nümayiş etdirərək bu məsələni həll etsə, qərbi azərbaycanlılar öz ata yurdlarına, ermənilər də Qarabağa qayıda bilərlər. Klaarın və ümumiyyətlə, Qərbin ermənilərin Qarabağa qayıdışı məsələsini gündəmə gətirməsi ədalətsizlik və rəzillikdir. Çünki Qərb 80-ci illərin sonunda Qərbi Azərbaycandan zorla qovulmuş 300 minə yaxın soydaşımız və 90-cı illərin əvvəlində öz suveren ərazilərindən məcburi köçkün salınmış 750 min azərbaycanlı haqqında belə ifadələr heç vaxt işlətmədi. Onlar elə bilirlər ki, erməni müdafiə etmək öhdəlikdir, azərbaycanlıları qaçqın və köçkün salmaq, əzmək və ərazilərini işğal etmək olar. Amma onlar bir şeyi yaddan çıxartmasınlar ki, Azərbaycan heç də 90-cı illərdə olduğu kimi deyil. Bu gün Azərbaycan özünə qarşı ədalətsiz yanaşan hər kəsin cavabını vermək iqtidarındadır və verir də".

**Siyasi təhlilçi Sona Əliyeva isə qeyd etdi ki, Toivo Klaarın son açıqlamaları "keşişdən daha çox katolik olmağa" bənzəyir və heç bir hüquqi əsasları yoxdur:** "Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın son açıqlamaları həyasızlığın və siyasi savadsızlığın pik nöqtəsidir. Birincisi, Qarabağdakı ermənilər könüllü şəkildə bu əraziləri tərk ediblər. İkincisi, həmin şəxslərin bir çoxu işğal edilmiş ərazilərə zorla köçürülmüşdülər. Bəziləri isə işğaldan sonrakı proseslərdə Livandan, Suriyadan gətirilən ermənilər idi ki, onları Ermənistanda qəbul etməmişdilər. Ona görə də Serj Sərkisyanın və Köçəryanın göstərişləri ilə Qarabağa yönləndirilmişdilər. Livandan və Suriyadan gələn ermənilərin sayı yüzlərlə idi. 1992-93-cü ildən sonra Ermənistanın müxtəlif nöqtələrindən Laçına, Qubadlıya və başqa yerlərə yerləşdirilən Ermənistan vətəndaşlarının sayı isə daha çox idi. Yəni Qarabağdan gedənlərin böyük hissəsi Azərbaycan vətəndaşı olan ermənilər deyillər. Bir sözlə, bizim onları qəbul etmək fikrimiz yoxdur. Azərbaycan heç bir təşkilat qarşısında miqrant qəbul etməklə bağlı öhdəlik götürməyib. Başqa bir nüansı da vurğulamaq istərdik ki, Azərbaycan hər zaman bəyan edib ki, bizim vətəndaşlığımızı qəbul etmək istəyən, vaxtilə erməni hərbi xuntasının buxovunda yaşayan və SSRİ dövründə burada qeydiyyatda olan erməni kökənli vətəndaşlarımıza hər zaman qucaq açmağa hazırıq. Hazırda işğaldan azad olunan ərazilərdə dövlətimizin şərtlərini qəbul edən ermənilər də yaşayır. Bu, Azərbaycan humanizminin əyani göstəricisidir. Əgər yenə də hansısa erməni Azərbaycana gəlib yaşamaq istəyirsə, müraciət etsin, əgər həmin şəxs Azərbaycan ərazisində, eləcə də azərbaycanlılara qarşı hər hansı cinayət əməlində iştirak etməyibsə, üstəlik, 1989-cu ilə qədər Azərbaycan vətəndaşı olubsa, dövlətimiz həmin insanların müraciətlərini nəzərdən keçirə bilər. Üstəlik, dövlətimiz bunun üçün onlayn qeydiyyat portalı da yaratmışdı. Amma ermənilər bu imkanlardan yararlanmaq istəmədilər".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**




# Zəngəzur dəhlizi sülh müqaviləsindən çıxarılıb

## Kommunikasiya xətləri sonrakı mərhələdə aparılacaq danışıqlar formatında həllini tapacaq

**"Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi layihəsindən qarşılıqlı razılaşma əsasında regional kommunikasiyalara dair maddənin çıxarılması digər amillərlə bağlıdır. Çünki sülh müqaviləsi dedikdə ilkin sənəd nəzərdə tutulur. Burada prinsiplər öz əskini tapacaq".**

Bunu Teleqraf.com-a sabiq xarici işlər naziri, **politoloq Tofiq Zülfüqarov** deyib. O qeyd edib ki, sülh müqaviləsindən kommunikasiya xətlərinin çıxarılması sonrakı mərhələdə aparılacaq danışıqlar formatında həllini tapacaq:

"Bu məsələyə aid Azərbaycan və Ermənistan tərəfindən xüsusi bir komissiya formalaşıb. Hər iki tərəfdən baş nazirlərin müavinləri bu istiqamətdə danışıqları bir neçə raundda aparıb. Bu danışıqlarda Rusiyanın baş nazirinin müavini də iştirak edir".

Sabiq nazir hesab edir ki, bu məsələdə hər hansı bir problem yoxdur: "Sadəcə olaraq, tərəflər hansısa mövzulara dair razılıq etmək mümkün olmadığı halda onu ilkin sənəddən çıxarıblar.

Kommunikasiyaların bərpa edilməsi məsələsi isə daxildədir. Bu, həmçinin Zəngəzur dəhlizi ilə bağlı olan məsələyə aiddir".

**Tofiq Zülfüqarova görə, kommunikasiya ilə bağlı məsələlər hələlik hazırlıq məhələsinə çatmayıb:** "Praktiki baxımdan bəzi mövzular ilkin razılaşmadan kənarlaşdırılır. Bu o demək deyil ki, həmin məsələlər həll olunmayacaq. Həmin mövzulara aid danışıqlar digər formatlarda davam etdiriləcək".

"Bakı və İrəvan razılığa gəliblər ki, sülh sənədi üzrə danışıqlardan kommunikasiyaların bloklanması məsələsini çıxarsınlar və sonra müzakirə etsinlər.

Əgər Bakı üçün bu məqam dəhlizə sahib olmaq imkanıdırsa, İrəvan üçün blokadanı yarmaq üçün fürsətdir. Amma bu, heç bir halda dəhliz bahasına edilə bilməz".

Bunu isə parlamentin müxalifətçi deputatı, Ermənistan Respublika Partiyasının üzvü Tiqran Abramyan öz Facebook səhifəsində yazıb.

"Azərbaycan iddia edir ki, bu addımı onlar üçün prioritet olan Ermənistan konstitusiyasına dəyişiklik edilməsi məsələsinin tezliklə həll olunması üçün atıb. Tərəflərin konkret hansı istiqamətdə və hansı məsələləri müzakirə etdiyi yalnız ümumi mənada aydındır. Əsas məsələlərdən biri Azərbaycanın son 4 ildə fəal şəkildə işlədiyi sərhəd nizamlanması məsələsidir", - deyə deputat qeyd edib.

YENİ MÜSAVAT
N 140 (8513) 9 avqust 2024

# “Miqrant ovu” başladı- azərbaycanlıların kütləvi qayıdışı...

## “Rus rublunun ucuzlaşması səbəbindən həmvətənlərimiz ciddi problemlərlə üzləşirlər və bəziləri vətənə geri dönür”

**İyulun 31-də “Ədalətli Rusiya - Həqiqət naminə” təşkilatının sədri Sergey Mironov və onun müavini Yana Lantratova Dövlət Dumasına miqrantların tibb və əczaçılıq, eləcə də məktəb və digər sahələrdə işləməsini qadağan edən qanun layihəsi təqdim ediblər.**

Qanun layihəsində əmək haqqı 100-120 min rubldan çox olduqda miqrantların kuryer kimi işə götürülməsinə qadağa qoyulması da təklif edilir. Təşəbbüsün müəllifləri mümkün qeyri-qənaətbəxş “bilik və bacarıq” səviyyəsinə görə əcnəbilərin sərnişindaşıma xidmətlərinin göstərilməsinə məhdudiyyətlərin qoyulmasını, habelə orta gəlirdən yuxarı olan bəzi fəaliyyət növlərinə qadağa qoyulmasını istəyirlər.

Qeyd edək ki, “Crocus City Hall” konsert zalında Tacikistan vətəndaşları tərəfindən törədilən terror aktından sonra miqrantlarla bağlı sərt qaydaların tətbiqi ilə bağlı çağırışlar kəskin artıb. Xüsusilə bu çağırışları Rusiya İstintaq Komitəsinin rəhbəri Aleksandr Bastırkin fəal şəkildə dəstəkləyir.

Rusiyalı hüquq müdafiəçilərinin fikrincə, bu qanun miqrantların ən kiçik qanun pozuntularına görə deportasiyasına zəmin yaradır.

Miqrantların qayıtmaq gözləntisi, əlbəttə, istənilən ölkə üçün əlavə başağrısı və sosial gərginliyi tətikləyən amil hesab olunur. Azərbaycandan da Rusiyada xeyli miqrant var. Qanunun sərtləşməsinə artıq Bişkek məlum reaksiyanı verib, Bakı isə daha çox gözləmə mövqeyindədir.

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifov**un sözlərinə görə, Rusiya rəsmi mənbələri öz saytlarında ölkədə əhalinin artımına dair göstəriciləri dərc edir: “Bəs bu artımlar nəyin hesabına baş verir? Təbii ki, bu artım, Rusiyaya xaricdən, ilk növbədə keçmiş sovet və daha çox Orta Asiya respublikalarından gələn miqrantların hesabına baş verir.

Bir sözlə, Rusiya bu gün özünün demoqrafik durumunu yalnız ölkəyə gələn miqrantların hesabına tənzimləyə bilir. Bu miqrantların böyük əksəriyyətini də, əvvəldə qeyd etdiyimiz kimi, Orta Asiya respublikalarından, ilk növbədə isə Tacikistan, Qırğızstan və Özbəkstandan gələnlər təşkil edir.



Mən 2000-2014-cü illərdə Rusiyanın Sankt-Peterburq şəhərində yaşamışam. Yaşadığım şəhərin bütün kommunal xidmətlərində, tikinti, yol infrastrukturunda və bu sıradan olan digər sahələrdə çalışanların (bu işləri el dilində “qara işlər” adlandırırlar) demək olar ki, hamısı müstəsna olaraq Orta Asiyadan gələn miqrantlardan və ilk növbədə tacik və özbək əsilli insanlardan ibarət idi. Orada yaşadığım müddətdə apardığım araşdırmalarla müəyyən etdim ki, Rusiyanın paytaxtı Moskvada və onun digər şəhərlərində də durum eynidir. Beləliklə, Rusiyanın demoqrafik durumunun “çulunu sudan çıxaran” və ölkənin işçi qüvvəsinə olan tələbatını ödəyənlər əsasən miqrantlardır. Bu sırada Orta Asiyadan, xüsusilə Tacikistan və Özbəkistandan gələn miqrantlar böyük üstünlük təşkil edir.

Sovetlər İttifaqı dağıldıqdan sonra müstəqil Rusiyada 1991-ci ildə 148,3 milyon nəfər insan yaşayırdı. Müstəqilliyin ilk illərində əhalinin demoqrafik durumunda bir sabitlik müşahidə olunsa da, 1998-ci ildən etibarən əhalinin sayında kəskin azalmalar qeydə alınmağa başladı və artıq 2007-ci ildə əhalinin sayı 5,5 milyon nəfər azalaraq, 1991-ci ildə qeydə alınmış 148,3 milyon nəfərdən 142,8 milyon nəfərə endi. Vəziyyətin getdikcə dramatikləşdiyini görən Rusiya hökuməti dərhal xüsusi dövlət proqramları çərçivəsində ölkədə əhalinin artımını stimullaşdırmağı nəzərdə tutan tədbirlərə rəvac verdi. Eyni zamanda ölkəyə miqrant axınının qarşısında dayanan bütün əngəllər aradan qaldırıldı, işçi vizası, oturum və Rusiya vətəndaşlığı almaq istəyənlər üçün qaydalar tam sadələşdirildi. Rusiya hökumətinin bu addımları müəyyən müddətdən sonra vəziyyətin bir qədər sabitləşməsinə gətirib çıxartdı. Belə ki, 10 ildən sonra - yəni artıq 2017-ci ildə Rusiyada əhalinin sayı 2007-ci illə müqayisədə 4 milyon nəfər artaraq, 146,8 milyon nəfərə çatdı.

Rusiya hökumətinin atdığı addımlara baxmayaraq bu ölkədə hazırkı demoqrafik durum olduqca acınacaqlı vəziyyətdədir. Hökumətin gördüyü tədbirlər gözləntiləri qətiyyən doğrultmur. Əvvəldə dediyimiz kimi, son 2023-cü ildə Rusiyada əhalinin 168 min nəfər təbii azalması baş vermiş və bu durum yalnız ölkəyə gələn 228 min miqrantların hesabına bir qədər tənzimlənmişdi. Rusiyada demoqrafik vəziyyəti və xüsusilə də əhalinin cins tərkibindəki acınacaqlı durumu bundan sonrakı illərdə bir qədər də ağırlaşdıran amil Rusiya-Ukrayna müharibəsindəki itkilər olacaq. Bu günə olan məlumatlara görə, onların sayı 450 min nəfərdən çoxdur və bu rəqəm getdikcə artmaqdadır".

**Sabiq nazir bir məsələyə də toxundu:** “Son hadisə - "Crocus City Hall"da baş vermiş terror aktından sonra Rusiya hökuməti ölkədə miqrantlarla bağlı vəziyyəti tənzimləmək üçün addımlar atmaq istəyir. Ancaq hansı addımlar atılacaq? Rusiyada bu gün on minlərlə miqrant mövcud qaydaları kobud şəkildə pozaraq fəaliyyət göstərsə də, hakimiyyət bu vəziyyəti düzəltmək üçün qətiyyət göstərə bilmir. Çünki miqrantlara göstərilən təzyiqlər sonda onların ölkəni tərk etməsi ilə nəticələnir ki, bu da Rusiya hakimiyyətinə qətiyyən sərf etmir. Bu gün Rusiyada bir neçə milyon nəfər işçi qüvvəsi çatışmazlığı fonunda hökumətin bu cür davranışı anlaşılandır. Terror aktının törədilməsində günahkar bilinən tacik əsilli şəxslərin olması, Rusiyada çalışan taciklərin kütləvi şəkildə bu ölkəni tərk etməsi ilə nəticələnməkdədir. Bu durum nə Rusiyaya, nə də Tacikistan hökumətinə lazım deyil. Rusiyada kommunal xidmətləri sferasında ən ağır işlərdə tacikləri əvəz edəcək bir başqa insanlar tapmaq olduqca müşkül məsələdir. Hökumət ya həmin işlərdə çalışmaq istəyənlərə taciklərə ödədiyindən 3-4 dəfə çox əmək haqqı ödəməli, ya da hər vəchlə taciklərin ölkədə qalmasına şərait yaratmalıdır. Gerçəklər bundan ibarətdir.

Yəni Rusiya hökuməti indi bu məsələnin həllində pat durumundadır. Taciklərin Rusiyanı tərk etməsinin nəticələrini Rusiya telekanalları vasitəsilə nümayiş etdirilən kadrlarda da görmək mümkündür. Məişət tullantılarının bəzi şəhərlərin mərkəzində belə günlərlə daşınmaması rus insanlarının ciddi narahatlığına səbəb olur.

Əslində miqrantların Rusiyanı tərk etməsi prosesi Ukraynaya hücumdan sonra başlamışdı. Müharibə başladıqdan sonra rus rublunun kəskin ucuzlaşması səbəbindən miqrantlar möhkəm valyuta hesabı ilə əvvəlkindən daha az qazanc əldə edirlər. Təbii ki, onlar qazandıqları pulun bir hissəsini vətənlərinə, öz doğmalarına göndərirlər. Digər tərəfdən, miqrantları bəzən haqsız olaraq yığıb cəbhəyə göndərirlər ki, bir çoxları da bu səbəbdən Rusiyanı tərk edirlər. Rusiyada bir qədər fərqli aqibəti azərbaycanlılar yaşayır. Bizim həmyerlilərimiz Rusiyada əsasən ticarətlə məşğul olsalar da, rus rublunun ucuzlaşması səbəbindən onlar da ciddi problemlərlə üzləşirlər və bəziləri geriyə, Azərbaycana qayıdırlar".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# Rusiyadan gətirilən tikinti materiallarında bahalaşma

## İrandan gətirilən məhsullar təhlükəsiz deyil...




**“Məlum olduğu kimi, Azərbaycana tikinti materialları əsasən xaricdən idxal olunur. Xüsusən də qonşu Rusiya və Türkiyədən gətirilən inşaat materialları bazarda mühüm yer tutur. Rusiyadan ölkəyə armatur, metal konstruksiya və taxta məhsulları gəlir. Ukraynadan əsasən artmatur, metal konstruksiya, alüminium və digər məmulatlar gətirilirdi. Lakin müharibə səbəbindən bu idxal dayandırılıb. Bu gün bəzi tikinti materiallarının qiymətində artım müşahidə olunur. Bu, əsasən taxta materiallarında özünü göstərir. Azərbaycan tikinti materialları məsələsində də idxaldan asılıdır. Məhz buna görə də xaricdə bahalaşma olan kimi ölkə daxilində də qiymət artır: Həmçinin tikinti materiallarının həm istehsalında, həm də daşınmasında dizel yanacağının rolu böyükdür. Zamanla bu artımlar davam edəcək. Ucuzlaşma olmayacaq”.**

Bunu Bakupost.az-a bəzi tikinti materiallarının bahalaşmasına münasibət bildirərkən **iqtisadçı ekspert Natiq Cəfərli** bildirib.

Onun dediyinə görə, taxta materialları Azərbaycana əsasən Rusiyadan gətirilir. Bakıda onların bahalaşması Rusiyada bu materialların qiymətinin artması ilə izah oluna bilər. Digər səbəb isə rüsumların hesablanması və yaxud da rəsmiləşmə qaydalarının dəyişdirilməsi ola bilər: “Bu qaydaların dəyişməsi də iş adamlarının əlavə vəsait xərcləməsinə səbəb olur. Onlar da təbii ki, buna qiymət artımı ilə cavab verirlər”.

Ekspert qeyd edib ki, xaricdə tikinti materiallarının qiyməti davamlı şəkildə artacaqsa, Azərbaycanda da bu istiqamətdə bahalaşma müşahidə ediləcək.

Bazarlarda tez-tez İran məhsulları ilə qarşılaşırıq ki, onlardan qiymətlər də başqa marketlərə nisbətən ucuzdur. Vətəndaşlar İran məhsullarından daha çox yuyucu vasitələrə, kərə yağlarına, şirniyyat və digər qida məhsullarına üstünlük verirlər.

Bəs bu məhsulların keyfiyyətinə nəzarət varmı? Daha ucuz qiymətə satılan qidaların tərkibi təmizdirmi?

**Azad İstehlakçılar İctimai Birliyinin sədri Eyyub Hüseynov** bildirib ki, əsas şikayətlərdən biri İrandan gətirilən kərə yağları ilə bağlıdır: “İstəyirik ki, kərə yağı bazarında vətəndaşlar ucuz və keyfiyyətli yağ alsınlar. Lakin bu məsələdə haqsız rəqabət şəraiti yaradılır. Yağların ucuz olmasının tərəfdarıyıq. Lakin onların tərkibi araşdırılmalıdır. Ən yaxşı ekspertiza istehlakçıların ümumi fikri və ictimai rəydir. Onlar düşünürlər ki, İrandan gətirilən kərə yağları heç də təmiz yağ deyil. Buradan AQTA-ya çağırış edirəm ki, bunu araşdırsınlar. Tərkibində qarışıq yağlar varsa, malın etiketinə yazılmalıdır. On ildən çoxdur ki, İrandan qaymaq gətirilir. Qaymaq uzun müddət saxlanıldıqda xarab olmur, dadı da yaxşıdır. İstehlakçılar düşünürlər ki, bu qaymaqlar çoxlu sayda qatqılara məruz qalır və s. İranda ümumiyyətlə, kimya sənayesi çox inkişaf edib. O cümlədən kimya sənayesi qida sənayesinə də nüfuz edib. AİB İrandan gələn kərə yağının araşdırılması ilə bağlı məşğul olacaq”.

**"Sergey Şoyqu və İlham Əliyev arasında müzakirə mövzularından biri, ehtimal ki, Rusiya biznesinin Dağlıq Qarabağ və ətraf rayonlarda ərazilərin bərpasında iştirakı olub". "Yeni Müsavat" xəbər verir ki, bu barədə Rusiyanın "Vedemosti" nəşri yazıb.**



# Rusiya şirkətlərinin Qarabağa gəlmək niyyəti - Ermənistana gözdağı...

## Şübhə yoxdur ki, onlar Qarabağda "qollarını çırmalayan" kimi, ermənilər də "tumanlarını başlarına atacaqlar"

Yada salaq ki, bu ilin yanvarın 22-də imzalanan "2024-2026-cı illər üçün əməkdaşlığın əsas istiqamətlərinin inkişafı üzrə Yol Xəritəsi" Azərbaycan-Rusiya arasında qarşılıqlı faydalı əməkdaşlığa mühüm töhfə verir, ticari-iqtisadi və investisiya qoyuluşunu sürətləndirir, nəqliyyat, sənaye, aqrar və qida təhlükəsizliyi, həmçinin innovasiya və informasiya texnologiyaları sahələrində birgə layihələrin gerçəkləşdirilməsinə əlverişli zəmin yaradır.

İki ölkə arasında investisiya sahəsində əməkdaşlıq da yüksələn xətlə inkişaf edir. Respublikamızda Rusiyanın iştirakı ilə böyük investisiya layihələrinin reallaşdırılması məhz bunun bariz ifadəsidir. Rusiyanın Azərbaycandakı şirkətləri yeni istehsal sahələri, xidmət mərkəzləri yaradaraq, sənaye sahəsində daha geniş əməkdaşlığa töhfə verirlər.

Hazırda Azərbaycanda Rusiya kapitallı 1400-dən çox müəssisə fəaliyyət göstərir. Onların 300-ə yaxını 100 faiz Rusiya sərmayəsinə malikdir. Ötən il Rusiyanın Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarının məbləği 300 milyon dollara yaxın olub.

Ermənistan cəmiyyətinin əsas revanşist kəsimi Qarabağda tikinti-quruculuq işlərində iştirak edən dövlətlərə qarşı dərhal "müharibə" elan edirlər. Son olaraq Belarus liderinə Qarabağda quruculuq işlərinə qoşulmaq istəklərini bəyan etdikdən sonra Paşinyan səviyyəsində hücumlar edildi. Əlbəttə, İrəvan hakimiyyəti Putinə bu cür hücuma cəsarət edə bilməz. Amma şübhə yoxdur ki, Rusiya şirkətləri Qarabağda "qollarını çırmalayan" kimi, ermənilər də "tumanlarını başlarına atacaqlar". Mümkündür ki, Rusiya da İrəvandakı anti-Rusiya əhvallı ermənilərin "kefinə belə soğan doğramaq" istəyir...

**Deputat Fəzail Ağamalı öncəliklə şimal qonşumuzla Azərbaycanın olan üstün münasibətlərinin vacibliyinə toxundu:** "Rusiyanın üç Qafqaz ölkəsi içərisində ən yüksək münasibətlər saxladığı dövlət Azərbaycandır. Bu münasibətlərin indiki səviyyəyə qalxmasında heç şübhəsiz ki, həlledici rol oynayan cənab Prezident İlham Əliyevdir. İlham Əliyevin unikal, ölçülüb-biçilmiş, çoxvektorlu xarici siyasəti dövlət və dövlətçilik maraqlarına indiki zaman kəsiyində cavab verən ciddi şərtdir. Rusiyanın Azərbaycana qarşı ərazi iddiaları yoxdur. Rusiya 44 günlük Vətən müharibəsində, eyni zamanda 2023-cü ilin antiterror əməliyyatında Xankəndi və onun ətrafında separatçı xunta rejiminin ləğv edilməsində bitərəf qalması, 90-cı illərin Yeltsin Rusiyasından fərqli olaraq Ermənistana hərtərəfli yardım etməməsi bizə imkan verdi ki, ermənilərlə haqq-hesabımızı təkbətək çürüdək. Azərbaycanın bütün parametrlər üzrə Ermənistandan hərbi üstünlüyü nəticəni müəyyənləşdirdi. Rusiya ilə o zamandan başlayan yüksək səviyyəli münasibətlərin müəllifi İlham Əliyevdir. Bu birmənalıdır. Deyərdim ki, bu, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında çox mühüm bir faktor oldu. Bəzi ağzıgöyçəklər hadisələrin gedişini və mahiyyətini obyektiv qiymətləndirməyi ya bacarmır, ya da qərəzli formada qəsdən bunu istəmirdilər və Rusiyanın buradakı sülhməramlı qüvvələrinin əbədi və daimi qalacağı haqqında fantaziyalar uydururdular. Lakin məsələlərə obyektiv yanaşan, İlham Əliyevi yaxşı tanıyan, onun xarakterini, aparmış olduğu siyasətin mahiyyətini yaxşı anlayan hər kəs bilirdi ki, bu müvəqqəti haldır, oradakı separatçı rejim ləğv edildikdən sonra ruslar orada qalmayacaqlar. Belə də oldu. Bu da Rusiya-Azərbaycan münasibətlərinin bir nümunəsi idi. Təbii ki, Rusiya ilə Azərbaycan arasında həm də iqtisadi münasibətlər ənənəvi xarakter daşıyır. Müəyyən çətinliklərə baxmayaraq, Azərbaycanla şimal qonşusu arasındakı iqtisadi münasibətlər demək olar ki, yüksələn xətlə inkişaf edir. Bəzi hallarda problemlər yaşansa da, bu əlaqələr kəsilməyib. Azərbaycan üçün Rusiya bazarı son dərəcə önəmlidir. Bu hər kəsə bəllidir. İndi Rusiyanın Azərbaycana investisiya qoyuluşunu daha da artırması, fəaliyyət göstərən şirkətlərin sayının artması iqtisadiyyatımızın inkişafına ancaq töhfələr verir. Müstəqilliyimizə, iqtisadi müstəqilliyimizə isə heç bir təhlükə yaratmır. İndi verilən məlumata görə, Qarabağda və Şərqi Zəngəzurda Rusiya şirkətlərinin bərpa və quruculuq işlərindəki iştirakları təbii ki, müsbət qarşılanmalıdır. Bu, Azərbaycan-Rusiya münasibətlərinin bugünkü üstün səviyyəsini ifadə etməklə yanaşı, həm də bundan sonrakı münasibətlərdə öz üstün töhfələrini verəcəkdir. Ölkələrimiz arasındakı iqtisadi bağlılıq son dərəcə vacibdir. Rusiya çox böyük bazardır. Bu gün Rusiya Ukraynada Qərblə döyüşüb, ciddi çətinliklər qarşısında qalsa da, bu ölkə nəhəngliyini itirməyib. Təbii ki, Rusiyanın Ukraynaya hücumunu heç vaxt təqdir hesab etməmişəm. Bu gün Rusiya Azərbaycanla sağlam iqtisadi münasibətlər içərisində yer alırsa, bu ancaq dövlətimizin və millətimizin xeyrinə ola bilər. Təbii ki, Kremlin bu gün Ermənistanla yaşadığı əsəbi və gərgin münasibətlərdən fərqli olaraq, Azərbaycan-Rusiya münasibətlərinin yüksələn xətlə getməsi, bunun iki dövlətin də maraqlarına uyğun olması, Qarabağ və Şərqi Zəngəzurda rus şirkətlərinin işləmək istəklərinə şərait yaradılması qətiyyən şübhə etmirəm ki, Ermənistan cəmiyyətini və hakimiyyətini kifayət qədər qıcıqlandırır. Onlar bundan ciddi narahatlıqlar keçirəcəklər. Bu, əlbəttə, Ermənistanın tutduğu yoldur və bu yol Ermənistanı ciddi fəlakətə aparır. Bizim seçimimiz ayrı-ayrı dövlətlərlə yüksək münasibətlər qurmaqdır, onların dost ölkə kimi Azərbaycanın yanında yer almasını vacib hesab edirik. Ölkə rəhbərinin xarici siyasəti də məhz bu müstəvi üzərində qurulub. Heç şübhəsiz ki, bundan sonra da bu siyasət ölkəmizə yeni-yeni uğurlar gətirəcək".

**Ədalət, Hüquq, Demokratiya Partiyası sədrinin müavini, siyasi şərhçi Elçin Mirzəbəyli** diqqətə çatdırdı ki, Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun ölkəmizə işgüzar səfəri çərçivəsində müzakirə edilən məsələlərin əhatə dairəsi ilə bağlı rəsmi məlumatlarda, mahiyyət etibarilə bütün istiqamətlər öz əksini tapıb: "Prezident İlham Əliyev Sergey Şoyqunu qəbul etdiyi zaman Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini bildirib, ölkələrimiz arasında imzalanmış sənədlərin və yol xəritələrinin həyata keçirilməsi, təhlükəsizlik, nəqliyyat, energetika, hərbi-texniki, humanitar sahələrdə əməkdaşlıqda özünü nümayiş etdirdiyini vurğulayıb. Məlum olduğu kimi, Azərbaycanla Rusiya arasında iqtisadi əlaqələrin inkişafını, qarşılıqlı investisiyaları təşviq edən və əməkdaşlığın genişlənməsi üçün hüquqi baza formalaşdıran çoxsaylı sənədlər imzalanıb. Şübhəsiz ki, iki ölkə arasında 2022-ci il fevralın 22-də imzalanan müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamə Azərbaycan-Rusiya münasibətlərini qarşılıqlı faydalı əməkdaşlığın ən üst səviyyəsinə yüksəldib. Sözügedən bəyannamənin 24-cü maddəsində qeyd olunur ki, Rusiya Federasiyası və Azərbaycan Respublikası qarşılıqlı faydalı ticarət-iqtisadi, sərmayə və elmi-texniki əməkdaşlığı dərinləşdirmək, istehsal və elmi əməkdaşlığı, hər növ mülkiyyət formalı təsərrüfat subyektləri arasında birbaşa əlaqələri keyfiyyətcə yeni səviyyəyə qaldırmaq niyyətindədirlər. İqtibas gətirdiyim maddədən də göründüyü kimi, Azərbaycanla Rusiya digər istiqamətlərlə yanaşı, qarşılıqlı sərmayələrlə bağlı münasibətlərini keyfiyyətcə yeni səviyyəyə qaldırmaq niyyətində olduqlarını bəyan ediblər. Bu baxımdan, Rusiya şirkətlərinin Azərbaycanın azad edilmiş ərazilərinin bərpasında iştirak etmələrində, bütövlükdə ölkəmizin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına sərmayə yatırmalarında qeyri-adi heç nə yoxdur. Əgər həqiqətən də Rusiya şirkətlərinin Azərbaycanın azad edilmiş ərazilərində həyata keçirilən quruculuq-bərpa işlərində iştirakı barədə müzakirələr aparılıbsa, bu, tamamilə təbii qəbul olunmalıdır və hər hansı bir üçüncü tərəfin bu kimi məsələlərdən əndişələnməsi tamamilə yersizdir. Məlum olduğu kimi, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını dəfələrlə bəyan edib və bununla bağlı, hətta Avropa İttifaqı platformasında qəbul edilən rəsmi bəyanatı imzalayıb. Digər tərəfdən, Azərbaycanın azad edilmiş əraziləri, hətta işğal dövründə belə beynəlxalq səviyyədə Azərbaycan Respublikasının suveren əraziləri kimi tanınıb. Əgər Rusiya şirkətləri Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin hər hansı bir hissəsində, o cümlədən Qarabağ və Şərqi Zəngəzur rayonunda həyata keçirilən quruculuq-bərpa işlərində iştirak edəcəklərsə, düşünürəm ki, belə bir ehtimal çoxdur, o zaman bu fəaliyyət beynəlxalq ictimaiyyət tərəfindən də təqdir olunmalıdır. Əslində bu gün ölkəmizin öz ərazi bütövlüyünü bərpa etməsindən narahatlıq keçirən və təxribatçı davranışlarından əl çəkməyən ölkələr, beynəlxalq hüquqa, humanizm və ədalət prinsiplərinə azacıq dəyər versəydilər, o zaman vandal Ermənistana deyil, Azərbaycanın azad edilmiş ərazilərinin bərpasında iştirak edən ölkələrin fəaliyyətlərini təqdir etməliydilər. Təbii ki, Azərbaycan torpaqlarının işğal altında olduğu zaman kəsiyində təbii sərvətlərimizin qanunsuz olaraq, istismarında iştirak edən, beynəlxalq iqtisadi cinayətlər törədən şirkətlərin mənsub olduqları ölkələrdən ədalətli və ləyaqətli davranış gözləmək mümkün deyil.

Rusiya şirkətlərinin Azərbaycanın azad edilmiş ərazilərində quruculuq-bərpa işlərində iştirak edəcəkləri təqdirdə "ermənilərin tumanlarını başlarına çəkəcəkləri" ehtimalına gəldikdə isə, düşünürəm ki, bundan narahat olmağa dəyməz. Çünki onların "tumanları hər zaman başlarında olub". Bu baxımdan yeni bir hadisə baş verməyəcək".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 140 (8513) 9 avqust 2024

# İrəvan aeroportunda "radara düşən" Amerika təyyarəsi

## ABŞ Silahlı Qüvvələrinə məxsus "Boeing C-17" hərbi yük təyyarəsi Zvartnots hava limanına nə gətirib?

**Flightradar qlobal uçuş izləmə xidmətinin məlumatına görə, avqustun 2 və 3-də ABŞ-ın Rumıniya və Yaxın Şərqdəki hərbi bazalarından Ermənistanın Zvartnots hava limanına 2 hərbi təyyarə qalxıb. Belə ki, ABŞ Silahlı Qüvvələrinə məxsus "Boeing C-17" hərbi yük təyyarəsi ilə şəxsi heyət hərbi yüklərlə birlikdə Zvartnots hava limanına gətirilib.**

Aprelin 5-də Brüsseldə imzalanmış sənədin hərbi əməkdaşlığı nəzərdə tutan məxfi hissəsinə uyğun olaraq, Ermənistan Silahlı Qüvvələrinə ABŞ istehsalı olan yeni nəsil silahlar - snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, zirehli zirehli texnika gətirilib. Ermənistan xüsusi təyinatlıları üçün ABŞ ordusunda istifadə edilən mini-hücum pilotsuz təyyarələri, kiçik ölçülü minalar və digər döyüş sursatları da bura daxildir. Bundan əvvəl ABŞ Ermənistan xüsusi təyinatlıları üçün bu sursatlardan istifadə üzrə təlimlər keçirib.



Belə görünür ki, avqustun 1-də Zvartnots hava limanını Rusiya hərbçiləri tərk edəndən sonra ABŞ Ermənistana silah daşımasını gücləndirib.

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən hərbi ekspert İbrahim Rüstəmlinin fikrincə, bütün bunlar Cənubi Qafqaz uğrunda gedən geosiyasi mübarizə ilə bağlıdır:** "Məsələ ondadır ki, 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda bir sıra hegemon dövlətlərin mövqe savaşı aktiv fazaya keçib. Düzdür, buna kimi də bir savaş var idi, amma bu səviyyədə deyildi. Çünki Ermənistanda Rusiyaya yaxın olan qüvvələr hakimiyyətdə idilər. Ona görə də ABŞ-la Fransa Ermənistana indiki kimi nüfuz edə bilmirdilər. Ancaq 2018-ci ildə Ermənistanda hakimiyyətin dəyişməsi, iki ildən sonra Azərbaycanın erməni işğalına son qoyması bu sahədə vəziyyəti Qərbin xeyrinə dəyişdi. Bunların başında ABŞ və Fransa dayanır. Vaşinqtonun regionda strateji maraqları var. Ancaq başlıca məqsəd Rusiyanı Ermənistandan sıxışdırıb çıxarmaqdır. Bu yöndə də davamlı olaraq çalışırlar. Qərbə yaxın olan media resursları davamlı olaraq Rusiyaya qarşı təbliğat kampaniyası aparırlar. Hər vəchlə erməni ictimai rəyində belə fikir formalaşdırmağa çalışırlar ki, Rusiya və KTMT Qarabağ döyüşlərində Azərbaycana mane olmayıb. Bundan başqa, guya Azərbaycan 2021-2022-ci illərdə Ermənistan ərazilərini ələ keçirib, amma Rusiya buna mane olmayıb. Əslində bütün bunlarda məqsəd həm də Rusiya hərbi bazalarını Ermənistandan çıxarılmasına nail olmaqdır. Elə Zvartnots hava limanından Rusiya sərhədçilərinin çıxarılması da ABŞ-ın planı idi. Çünki onlar istəmirdilər ki, Ermənistanın silahlandırılmasını Rusiya bilsin. Ermənistanı ona görə silahlandırırlar ki, revanşist qüvvələr güclənsin. Rusiyanın bu ölkədən hərbi qüvvələrinin çıxarılması ilə bağlı tələblər artsın və ermənilər özlərini daha inamlı hiss etsinlər. Bu səbəbdən artıq açıq şəkildə Ermənistan silahlandırılır".

❑ **"Yeni Müsavat"**

# Mossadın şok əməliyyatı - gizlinlər üzə çıxdı

## İsmayıl Haniyəni Qətərdə öldürmə planı uğursuz olub, amma...




**HƏMAS lideri İsmayıl Haniyənin necə öldürüldüyünün təfərrüatı məlum olub.**



Musavat.com bu barədə "The Jewish Chronicle" nəşrinə istinadən xəbər verir.

Yəhudilərin Britaniyada çap olunan həftəlik "The Jewish Chronicle" (Yəhudi Xronikası) nəşri HƏMAS-ın Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin Tehranda öldürülməsinin təfərrüatları haqda məqalə dərc edib.

**Yazıda deyilir:** "(İsrail hökuməti tərəfindən təsdiqlənməsə də) İsrailin həqiqətən də keçən həftə Tehranda HƏMAS lideri İsmayıl Haniyənin öldürülməsinə görə məsuliyyət daşıdığına inanılırdı. Amma "Yəhudi Xronikası" Haniyənin çarpayısının altına qoyulan partlayıcı qurğunun SEPAH-ın "Ənsar əl-Mehdi" elit qüvvələrindən Mossad-ın əməkdaşlığa cəlb etdiyi iki iranlı tərəfindən qoyulduğunu ortaya çıxardı. Onlar binanın və onun qonaqlarının təhlükəsizliyini təmin etməli olan şəxslərdir.

İranlılar özləri də sui-qəsddən sonra bunu anladılar. Qonaq evinin təhlükəsizlik kameralarını yoxlayaraq, iki mühafizəçinin dəhlizdə gizlicə Haniyənin qalmağı planlaşdırdığı otağa tərəf getdiyini və açarla qapını açaraq oraya daxil olduqlarını müşahidə ediblər.

### Mossad onları gizli yolla İrandan çıxarıb

Üç dəqiqədən sonra iki mühafizəçinin (hər birinə altı rəqəmli məbləğdə pul, eləcə də sui-qəsddən sonra dərhal Şimali Avropa ölkələrindən birinə göndərilməsi təklif edilmişdi) kamera görüntülərində yavaş-yavaş pilləkənlərlə binanın əsas girişinə doğru aşağı düşdükləri və sonra qara rəngli avtomobilə mindikləri görünür. Daha sonra dayanacağın gözətçisinin onları tanıdığı və heç bir sual vermədən qapını açdığı görünür. Bir saat sonra isə Mossad onları gizli yolla İrandan çıxarıb.

### Əvvəl yayılan xəbərlər doğru deyil

Cihazın partlayışdan həftələr və ya aylar əvvəl Haniyənin otağına yerləşdirildiyi barədə ilk günlərdə yayılan xəbərlər doğru deyil.

Təhlükəsizlik kameralarından məlum olur ki, qurğu partlayış baş verən gün, saat 16:23-də, yəni Haniyə öz otağına daxil olmazdan təxminən 9 saat əvvəl otağa yerləşdirilib.

Partlayış gecə yarısından sonra, yerli vaxtla saat 01:37-də uzaqdan idarə olunub və avtomatik işə salınıb.

Aşkarlanmasının qarşısını almaq üçün Mossad bombanı çarpayının altına quraşdırılmış, eni 3 düym və uzunluğu 6 düym olan yastı kərpic şəklində hazırlayıb. Günahsız mülki şəxslərə dəyən zərəri minimuma endirmək üçün onlar öz dəqiqliyi ilə tanınan və yalnız Haniyənin otağını hədəf alan bombadan istifadə ediblər. Nəticədə binanın yalnız müəyyən bir sahəsi zədələnib.

Oktyabrın 7-dən sonra qərara alınan Haniyənin öldürülməsi Mossad-ın qarşısına qoyulmuş ən öncəlikli vəzifə olub. İsrail hökuməti Tehrandakı Mossad casuslar şəbəkəsindən, o cümlədən Qəzza müharibəsindən çox əvvəl İranda fəaliyyət göstərmiş yerli iranlı əməkdaşlarından kompleks tədbirlər tələb edib.

Son 20 il ərzində İsrail İranın nüvə silahı hazırlamaq səyləri ilə bağlı kəşfiyyat məlumatları toplayır. Bu məlumatlar SEPAH-ın 2 zabitinin ələ alınması ilə birlikdə Haniyənin öldürülməsini mümkün edib".

### İsmayıl Haniyəni Qətərdə öldürmə planı uğursuz olub

Məqalədə o da qeyd edilib ki, Mossad bundan öncə HƏMAS liderini Qətərdə öldürməyi planlaşdırıb:

"İsrailin bir neçə dəfə Mossad vasitəsilə Haniyəni Qətərdə öldürmək üçün şansları olub. Lakin son anda bundan vaz keçilib. Buna səbəb isə Qətərin İsraillə HƏMAS arasında girov böhranında kritik müzakirəçi rolunu oynaması olub. Belə ki, Qətər torpağında sui-qəsd cəhdi bu ölkəni utandıra və Qəzza müharibəsindən əvvəl İsrail və Qətər arasında müzakirə olunan gələcək sülh razılaşmasını təhlükə altında qoya bilərdi".

Qeyd edək ki, məqalənin müəllifi israilli jurnalist İlon Perridir.

O, 28 il xidmət etdiyi İsrail Müdafiə Qüvvələrinin elit "Qolani" briqadasının keçmiş komando əsgəridir. Perri 25 il ərzində reportyor kimi müharibələr və terror hadisələrini işıqlandırıb. 2010-cu ildən İngiltərə və ABŞ-da İsrail-Fələstin münaqişəsinə xüsusi diqqət yetirməklə, Yaxın Şərqdə 100 illik terror mövzusunda tədris edir və hazırda Londonda yaşayır.

❑ **Toğrul İSMAYIL, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 140 (8513) 9 iyul 2024



# Məktəb başlamamış forma problemi

## Ekspert: "Məktəbli formaları ilə bağlı məktəbin, hansısa qurumun göstərişinin olması düzgün deyil"

**Azərbaycanda məktəblərin açılmasına bir aya yaxın vaxt qalıb. Bu gün Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi (MÜTDA) məktəbli formalarının satış ünvanlarını açıqlayıb. 130-dan artıq ünvanda valideynlər bu formalardan ala bilər.**

Hazırda Bakıda forma istehsalı ilə məşğul olan bir neçə fabrik olsa da, saxta formaların çoxluğu vətəndaşlarda çaşqınlıq yaradır. Valideynlər bir çox hallarda saxta formanı orijinaldan ayırd etməkdə çətinlik çəkir. Həmçinin formaların qiymətləri də ictimaiyyəti düşündürən əsas məsələlərdən biridir.

**Bakı Tikiş Evinin şöbə müdiri Etibar Əzimov Modern.az-a deyib ki, bazarlarda saxta formalar var:** "Sədərək və Binə ticarət mərkəzlərində Azərbaycanı 10 il forma ilə təmin edəcək saxta forma var. Rayonlara da bu saxta formalar göndərilir. Biz rayonlarda mağaza açsaq da, maraq göstərən olmur. Valideynlər ancaq ucuz mal istəyir, ona görə də saxta formalara üz tuturlar".

**Məktəbli formalarının qiymətlərinə toxunan direktor bu il 20% ucuzlaşma olduğunu vurğulayıb:** "Şalvar və ətəklərin qiyməti 25 manatdan 20 manata endirilib. Bunun səbəbi saxta formaların bazarda çox olmasıdır. Saxta formalar 17-18 manata təklif edilir. Biz də vətəndaşların keyfiyyətli forma ala bilməsi üçün qiymətlərdə endirim etdik. Bizim istehsal etdiyimiz formanın parçası 10 dollardır, bu da 17 manat edir. Digər xərcləri də əlavə etdikdə ətək, yaxud şalvar bizə 18.5-19 manata başa gəlir. Polo köynəklərin qiyməti isə 15 manatdır".

"Müəllimlər üçün vahid forma tətbiq edilməsi müzakirə olunmur". Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Ümumi təhsilin təşkili şöbəsinin müdir müavini Nurlan İsmayılbəyli jurnalistlərə açıqlamasında belə deyib.

"Müəllimlər üçün hələ ki vahid forma tətbiq edilməsi nəzərdə tutulmayıb. Müəllimlər məktəblərdə normativlərə uyğun geyinməlidir. Müəllimlərin formaları ilə bağlı hələ ki məsələ müzakirə edilmir", - o qeyd edib.

Bununla belə, valideynlər qeyd edirlər ki, BTE-nin təklif etdiyi formaların keyfiyyəti aşağı olduğuna görə məcburdurlar mağazalardan geyimlər alsınlar. Bunlar isə olduqca bahadır. Əgər bir evdən iki, yaxud üç uşaq məktəbə gedəcəksə, valideyn xeyli pul xərcləməli olacaq. "Jaketlər hər yerdə çox bahadır. Keçən il imkanım çatmadı formaya uyğun jaket almağa, başqasını aldım, məktəbdən uşağa geyinməyə icazə vermədilər. BTE-nin jaketləri həm çox qalındır, uşaq tərpənə bilmir, həm də bahadır", - deyə valideynlərdən biri qəzetimizə şikayət edib.

**Digər bir valideyn isə məktəb tərəfindən məcburi formanın təklif olunmasından narazılıq edib:** "Ötən il valideyn komitəsi bizə bildirdi ki, məktəbin danışdığı mağaza var, hamı paltarı oradan alsın. Açığı, biz gedib baxdıq, heç bəyənmədik geyimləri. Niyə bizə təsir etməyə çalışırlar. Özümüz bilərik, haradan alaq. Məktəb başlayan kimi min bir bəhanə ilə pul yığmaq, öz tanışlarından geyim, dərs vəsaitlərini almağı tələb edirlər. Dərs ilinin başlamasına sevinmək əvəzinə əsəb keçiririk".

**Təhsil eksperti Cahid İmanov** mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, vahid məktəbli formasının olması məqsədəuyğundur, amma hansısa məktəb rəhbərlərinin, hansısa qurumun göstərişinin olması düzgün deyil: "Formanı müəyyənləşdirirlər, valideyn özü bilər haradan istəsə alsın. Valideyn kimi mən də övladıma hər il məktəbli geyimi alıram, mən də təklif olunan o geyimləri bəyənmirəm. Uşaqların paltara allergiyası olur. Formanın rəngini müəyyənləşdirsinlər, amma seçimi valideyn özü etməlidir. Bəzən müəyyən dükanlara ünvanlayırlar ki, almalısınız. Bu, yolverilməzdir. O ki qaldı məktəbli formalarının qiymətlərinə, müəyyən hədd qoyulmalıdır ki, məktəbli formaları ilə bağlı bu həddi mağazalar keçməsin. BTE-nin satdığı paltarlar da real bazar qiymətindən baha olur, amma keyfiyyətsiz olur. Bir ailədən bir neçə uşağın məktəbə getməsi o ailə üçün böyük yükdür. Bunlar hansısa formada tənzimlənməlidir. Ümumiyyətlə, dövlət qayğısı elə olmalıdır ki, ən azı geyimlərə müəyyən limit qoyulmalıdır".

Qeyd edək ki, Nazirlər Kabinetinin 17 mart 2022-ci il tarixli "Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri"nin təsdiq edilməsi haqqında qərarına əsasən, ümumi təhsil müəssisələrində 4 növ geyim formasından biri tətbiq edilir. 2022-ci ildə hər bir ümumi təhsil müəssisəsinin Pedaqoji Şurası bununla bağlı müvafiq qərar qəbul edib.

❑ **Afaq MİRAYİQ,
"Yeni Müsavat"**

# İxtisas seçimi başladı - onlar seçimdə iştirak edə bilməz

## Müəyyən ixtisaslarda tələblər fərqlidir



**Bu gün-avqustun 9-da Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi başlayır.**

İxtisas seçimində iştirak etmək üçün müsabiqə şərti mövcuddur.

Qeyd edək ki, müsabiqə şərti Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla Dövlət İmtahan Mərkəzi tərəfindən bu və ya digər ixtisas qrupu, yaxud ixtisas üzrə müsabiqəyə buraxılmaq üçün qoyulan minimal tələbdir.

2024/2025-ci tədris ilində müsabiqəyə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılırlar.

**Ancaq müəyyən ixtisaslarda tələblər fərqlidir.**

**I qrupda**

- "Riyaziyyat", "Fizika" və "Kompüter elmləri" ixtisasları üzrə müsabiqəyə ümumi balı 250-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır;

- Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti, İtaliya-Azərbaycan Universiteti, Bakı Ali Neft Məktəbi, Sumqayıt Dövlət Universiteti və Türkiyə-Azərbaycan Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;

- Aşağıda qeyd olunan ixtisaslar üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılır: meliorasiya mühəndisliyi, texnologiya müəllimliyi, ekologiya mühəndisliyi.

- Aşağıda qeyd olunan ixtisaslar üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak edə bilərlər: Aqromühəndislik, aqronomluq, balıqçılıq, meşəçilik, şərabçılıq, torpaqşünaslıq və aqrokimya, yerquruluşu və daşınmaz əmlakın kadastrı, zoomühəndislik.

**II qrupda:**

- Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti və Bakı Ali Neft Məktəbi istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılacaq;

- Aşağıda qeyd olunan ixtisaslar üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılacaq: Marketinq, Biznesin idarə edilməsi, Turizm bələdçiliyi, Turizm işinin təşkili.

**III qrupda**

Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir:

- Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılacaq;

- Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti istisna olmaqla) "Tərcümə (dillər üzrə)", "Filologiya (xarici dil və ədəbiyyatı üzrə)" və "Xarici dil müəllimliyi (dillər üzrə)" ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) xarici dil fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılacaq;

- Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti istisna olmaqla) "Beynəlxalq münasibətlər" ixtisasının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) xarici dil fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılacaq;

- Aşağıda qeyd olunan ixtisaslar üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılacaq: Muzey, arxiv işi və abidələrin qorunması, Sosial iş, Regionşünaslıq (regionlar üzrə).

**IV qrupda**

- Dövlət ali təhsil müəssisələrinin tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılacaq;

- Aşağıda qeyd olunan ixtisas üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılacaq: Ekologiya.

- Aşağıda qeyd olunan ixtisaslar üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak edə bilərlər: Bağçılıq və tərəvəzçilik, Baytarlıq təbabəti, Bitki mühafizəsi, Su bioehtiyatları və akvakultura.

YENİ MÜSAVAT
N 140 (8513) 9 avqust 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

# Fransa dinlərə qarşı dözümsüz ölkə olduğunu sübut etdi

## Ekspert: "Bəşəriyyətin dəyərləri psixoseksual problemləri olan azlığın ayaqları altında əzilir"

**Fransada Yay Olimpiya Oyunları rəzilliyi ilə dünyaya səs salıb. İyulun 26-dan başlayan oyunlar bir neçə gündən sonra bitəcək. Amma yarışlar elə ilk günlərindən biabırçılığı ilə yadda qaldı.**

"Yeni Müsavat" xəbər verir ki, təhlükəsizlikdən tutmuş təmizliyə qədər bir çox çatışmazlıqlar qonaqların narazılığı ilə qarşılanıb və günlərdir müzakirələrə səbəb olub.

Açılış mərasimində xristianların dini hisslərinin təhqir olunması isə son hədd oldu, peyğəmbər İsa Məsihin etikadan kənar obrazının yaradılması Fransa hakimiyyətinin məqsədyönlü şəkildə insanların dini hisslərini alçaltması kimi dəyərləndirildi. Açılış mərasimində satanistlərin simvollarının nümayiş etdirilməsi də bu ölkə haqqında açıq-aşkar fikir formalaşdırdı. Qeyd etmək yerinə düşər ki, Fransanın İslama qarşı dözümsüz münasibətinin dəfələrlə şahidi olmuşuq. Hətta Məhəmməd Peyğəmbərin karikaturası çəkilmiş, müsəlmanların inanclarını aşağılayan bir çox addımlar atılmışdı. Bu dəfə dünya Fransanın təkcə müsəlmanlara qarşı deyil, xristianlığa və İsa Peyğəmbərə qarşı da dözümsüz və alçaldıcı münasibətinin şahidi oldu.

**Siyasi şərhçi Azər Hüseynov** mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, dünya Fransa inqilabının baş verməsi ilə bir çox pozitiv qazanclar əldə etsə də, bəşəriyyət tarixində indiyə qədər olmayan neqativlərin də qapıları açıldı: "Bu mənim yadıma Lut peyğəmbərin öz xalqına Quranda keçən xitabını saldı: "Lutu da (peyğəmbər) göndərdik. Bir zaman o öz qövmünə belə demişdi: "Siz özünüzdən əvvəl heç bir insanın etmədiyi əxlaqsızlığımı edirsiniz?" (Əraf surəsi, 80-ci ayə). Bəli, Fransa inqilabının qapısını açdığı sekulyarizm əgər ilk əvvəl kilsənin siyasi idarəçilikdən uzaqlaşdırılmasını nəzərdə tuturdusa, daha sonra dinəfobiyaya keçdi. Əslində Qərbin incəsənəti humanizm deyilən cərəyanın da ayaq açıb yeriməsi ilə Tanrıya savaş açdı. Dünya xüsusilə İslam Peyğəmbərinin karikaturası çəkiləndə söz azadlığı deyilən bütün arxasında sığınanda düşünməli idi ki, bir zaman bu, Həzrəti İsaya da gələcək. Həzrəti İsa xristianlar üçün dəyər olduğu kimi müsəlmanlar üçün də dəyərdir. Çünki müsəlmanlar, Quranda bildirildiyi kimi, "Biz Onun peyğəmbərlərindən heç biri arasında fərq qoymuruq". (Bəqərə, 285) deyirlər. Olimpiada açılışında olan Həzrəti İsa ilə bağlı rəsm haqqında Quranda bir surə var. Maidə surəsi. Yeni bir sözlə, olimpiadanın açılışında belə bir səhnənin ortaya çıxması həyəcan təbilinin çalınması deməkdir".



**Ekspert əlavə edib ki, bəşəriyyətin dəyərləri psixoseksual problemləri olan, getdikcə bəzi ölkələrdə nazir, baş nazir səviyyəsində siyasi hakimiyyətə gələn azlığın ayaqları altında əzilir:** "Fransa da bu məsələdə pioner olub, olmaqda da davam edir. Biz dünyanın ən tolerant cəmiyyətiyik. Azərbaycanda xristianlar da, yəhudilər də, dinsizlər də can və fikir güvənliyi içərisində yaşayır. Görünən odur ki, Qərb belə deyil. Görünən odur ki, Qərb bizim də fikir, mədəniyyət qibləmiz ola bilməz. Bununla bağlı dövlət başçısı öz çıxışlarında bildirib ki, bizdə kişi kişidir, qadın isə qadın. Ancaq təəssüf ki, "Səfillər" ölkəsində belə deyildir. Və bu da öz növbəsində dünyaya xərçəng metastazı verə bilər. Dini dəyərlərin alçaldılması yekunda şəhvətpərəst və seksual azlıqların siyasi elitasının aqressiv olduğu bir dünyanın yaranmasına gətirib çıxara bilər. Dünya bunu düşünməlidir. Məhz buna görə də bizim prioritetimiz Türk dünyası oldu. Avromərkəzli strukturlar bir böhran içərisindədir. Bu böhranı çox zaman bəzi insanlar iqtisadi rifahda görmək istəyirlər. Yeni Avropa dağılmır ki, hamı yaxşı yaşayır, filan. Amma elə deyildir. Əgər cəmiyyətin mənəvi, insanlığın fikri kodları dəyişirsə, bu, daha böyük faciələrə aparır dünyanı. Yenə də Qurandan misal vermək istərdim: "Onlar sizdən qüvvədə daha üstün, mal-dövlət və övlad baxımından daha çox idilər. Onlar öz paylarından zövq aldılar". (Tövbə surəsi, 69-cu ayə). Beləliklə, biz görürük ki, əslində Qərb siyasi və mədəni elitasının dinə və dini ayinlərə qarşı bir fobiyası vardır. Bizdə də onların təsiri ilə bəzən Qərb bulağından su içənlərin, "Səfillər" ölkəsinə "ibadət edənlərin" belə davranışlarını görmək olur. Ölkəni qorumaq üçün hamımız bir olmalıyıq. Daha sonra təmizlik məsələləri. Sena çayında natəmizliklərdən xəstələnən idmançılar, yeməkdə ət tapmayan üzgüçülər, hotel otağında yata bilməyib parkda yatan idmançılar. Bu, əslində insana verilən dəyərdir. "Səfillər" ölkəsində nə bilsinlər ki, məsələ bizdə qonaq gələndə ən yaxşı yeməyi yeyər, ən yaxşı yerdə yatar, diqqət və qayğı ilə əhatə edilər. Müsyö Jordan belə gəlib getdi, bunlar hələ "tema"nı tuta bilmədilər. Bütün bunları görəndə insan bir daha Rəbbinə həmd edir ki, Azərbaycanda yaşayır. İnsanlıq cəmiyyətində, multikultural dəyərlər cəmiyyətində yaşayır. Amma biz də gərək özümüzü təhlükələrdən qoruyaq. Dinəfobiya təhlükəsinin ölkəmizə ayaq açmasına, sızmasına imkan verməyək".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

# Şeyx Məkkəyə niyə getmişdi?

## QMİ sədri fətva şuralarının beynəlxalq mərkəzinin yaradılmasını təklif edib

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Səudiyyə Ərəbistanı Krallığında səfərdə olub. Səudiyyə Ərəbistanının İslam işləri, İrşad və Dəvət naziri Əbdüllətif bin Əbdüləziz Al Əş-Şeyxin dəvəti ilə həyata keçirilən səfər çərçivəsində QMİ sədri A.Paşazadə Məkkə şəhərində keçirilən "Mötədillik prinsiplərinin möhkəmləndirilməsində Vəqflər və İslam işləri üzrə qurumların rolu mövzusunda" beynəlxalq konfransda iştirak edib.**




Sayca 9-cu dəfə təşkil edilən konfransda 60-dan çox müsəlman dövlətini təmsil edən rəsmi şəxslər, İslam aləminin nüfuzlu din xadimləri iştirak edib.

Səudiyyə Ərəbistanı Krallığının himayəsi ilə baş tutan nüfuzlu forumda çıxış edən Şeyxülislam dünya müsəlmanlarının müqəddəs məkanı Məkkədə belə bir tədbirin keçirilməsinin İslam dünyası üçün xüsusi önəm daşıdığını vurğulayıb. QMİ sədri İslam ümmətinin maraq və mənafelərinə, beynəlxalq müstəvidə mötədil İslam irsinin təbliğinə, tolerantlığın təşviqinə xidmət edən, müxtəlif dinlər arasında tolerantlığı və qarşılıqlı anlaşmanı təbliğ edən, insanlar arasında mənəvi körpülər yaradan Məkkə Bəyannaməsini ümumbəşəri dəyərlərə töhfə kimi qiymətləndirib.

Bu gün dünyanın müxtəlif nöqtələrində baş verən qarşıdurma və sülhə təhdid olan halların qarşısının alınması üçün İslam aləmi daxilində həmrəyliyin gücləndirilməsi, məzhəblərarası anlaşma mühitinin möhkəmləndirilməsinin xüsusi zərurət kəsb etdiyinə diqqəti çəkən A.Paşazadə İslam dünyasının mötədil, dinlərarası tolerantlıq və məzhəblərarası anlaşma məkanı olan Azərbaycanın örnək təcrübəsindən, bu istiqamətdə dövlətimizin səylərindən bəhs edib.

A.Paşazadə ümmətimiz üçün əhəmiyyət kəsb edən tədbirdə qəbul ediləcək fətvaların islamdaxili vəhdət, bəşəri həmrəyliyə, insan qardaşlığına, məzhəbi yaxınlaşmaya xidmət etməli, bəzi siyasi qüvvələrin dindən sui-istifadə edərək cəmiyyətlərə yanlış dəyərlər təlqin etməsinin qarşısını almalı olduğuna diqqəti çəkərək, islamafobiya hallarının artmasına xüsusi toxunmuşdur. Məkrlə düşünülmüş, planlaşdırılmış siyasi oyunların təhlükəli fəsadlarının önünü kəsmək üçün ən münasib qərar olaraq, Şeyxülislam İslam dünyasının fətva şuralarının beynəlxalq mərkəzinin məhz Məkkədə yaradılması təklifi ilə çıxış edib. Bildirib ki, bir mərkəzdən verilən qərarlar və qəbul edilən fətvalar İslam ümmətinin gələcəyini mütərəqqi şəkildə yönəltməli, islamdaxili münaqişələrin aradan qaldırılmasına, müsəlman ümməti daxilində anlaşma mühitinə xidmət etməlidir.

Şeyx konfrans çərçivəsində Məkkədə bir sıra görüşlər keçirib. QMİ sədri Səudiyyə Ərəbistanı Krallığının İslam işləri, Dəvət və İrşad naziri, konfransın prezidenti Əbdüllətif Al Əş-Şeyxlə görüşdə nazirə Prezident İham Əliyevin salam-dualarını çatdırıb. Şeyxülislam nazirə bu ilin noyabrında Bakıda keçiriləcək COP29 haqqında ətraflı məlumat verib və naziri bu tədbir çərçivəsində keçirilməsi nəzərdə tutulan Dini Liderlərin Sammitinə dəvət edib.

Konfrans çərçivəsində Şeyxülislam Türkiyənin Dini İşlər Başkanı Ali Erbaşla, Misir Ərəb Respublikasının Vəqflər naziri Usama Əl-Əzhəri ilə də görüşlər keçirərək fikir mübadiləsi aparıb. QMİ sədri həmçinin, Mərakeş, Misir, Qambiya, Oman, Somali, Mali və digər müsəlman ölkələrinin dini işlər nazirləri, müftilər və din xadimləri ilə görüşüb.

❑ **"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 140 (8513) 9 avqust 2024

# Mərkəzi Bank pulu hara yatırdığını açıqladı

## Daşınmaz əmlak, o cümlədən qızıl kimi digər aktiv növlərinə hələ ki investisiya edilmir




**Xəbər verdiyimiz kimi, Azərbaycan Mərkəzi Bankı (AMB) investisiya siyasətini açıqlayıb. AMB-dən bildirilib ki, konservativ investor kimi yalnız sabit gəlirli qiymətli kağızlara investisiya edilir. Bu baxımdan səhm, daşınmaz əmlak, o cümlədən qızıl kimi digər aktiv növlərinə hələ ki investisiya edilmir.**

Mərkəzi Bankın valyuta aktivlərinin cari bölgüsünə gəldikdə bildirilib ki, bu, əsasən investisiya reytinqli dövlət və kvazi-dövlət istiqrazlarından, habelə pul bazarı alətlərindən ibarətdir.

Qeyd edək ki, bu il iyul ayının 31-nə AMB-nin valyuta ehtiyatları 11 milyard 765.7 milyon ABŞ dollarına çatıb ki, bu da 2015-ci ildən sonra ən yüksək göstəricidir.

2023-cü ilin yekunlarına dair hesabatdan aydın olur ki, ötən il Mərkəzi Bank, nəhayət ki, mənfəətə çıxıb. Belə ki, qurum 2021-ci ili 162 milyon 746 min manat, 2022-ci ili 63 milyon 955 min manat zərərlə başa vurmuşdu. 2023-cü ilin yekununda isə 349.113 milyon manat xalis mənfəət əldə edib. Eyni zamanda Mərkəzi Bankın illik cəmi məcmu zərəri 2021-ci ildə 201 milyon 724 min manat, 2022-ci ildə 195 milyon 246 min manat olmuşdu.

2021-ci ildə Mərkəzi Bankın faiz gəlirləri 131 milyon 227 min manat, 2022-ci ildə 221 milyon 20 min manat, 2023-cü ildə isə 515.327 milyon manat (əvvəlki ilə nisbətən 2.3 dəfədən çox) təşkil edib. Faiz xərcləri isə 2022-ci ildə əvvəlki ildən 0,9 faiz çox olmaqla 167,928 min manat, 2023-cü ildə 299.649 milyon manat (1.8 dəfə çox) təşkil edib.

2021-ci ildə Mərkəzi Bank 20 milyon 488 min manat, 2022-ci ildə 32 milyon 421 min manat, 2023-cü ildə isə 28.371 milyon manat (12.5 faiz az) haqq və komissiya gəlirləri də əldə edib.

2023-cü ildə AMB-nin öhdəlikləri 11.2 faiz artaraq 33 milyard 239.248 milyon manat təşkil edib. Dövriyyədə olan əsginasların və sikkələrin həcmi 17.7 faiz artaraq 17 milyard 318.195 milyon manata çatıb. AMB-nin kredit təşkilatları qarşısında öhdəlikləri 5.7 faiz artaraq 6 milyard 521.107 milyon manat, hökumət idarələri qarşısında öhdəlikləri 12.2 faiz azalaraq 3 milyard 759.175 milyon manat, BVF ilə əməliyyatlar üzrə öhdəlikləri isə cüzi artaraq 1 milyard 211.857 milyon manat olub.

İl ərzində qurumun balans kapitalı 1.6 dəfə artaraq 1 milyard 554.215 milyon manata çatıb. Nizamnamə kapitalı isə 500 milyon manat rəqəmində dəyişməz olaraq qalıb.

Ötən il Mərkəzi Bankın haqq və komissiya xərcləri 3.330 milyon manat (10.0 faiz az), sair inzibati və əməliyyat xərcləri isə 113.320 milyon manat (1.6 faiz az) olub. AMB-nin maliyyə öhdəliklərinin tanınması üzrə gəlirləri 47.892 milyon manat (18.9 faiz az), qiymətli kağızlarının yenidən qiymətləndirilməsi üzrə gəlirləri 34.465 milyon manat (əvvəlki ildə zərər olub), qiymətli kağızlarının realizasiyası üzrə gəlirləri 101.931 milyon manata (əvvəlki ildə zərər olub) çatıb. AMB-nin qiymətli kağızlarının dəyərsizləşməsi üzrə zərəri 470 min manat (39.4 faiz az), investisiya fondlarındakı vəsaitlərinin yenidən qiymətləndirilməsi üzrə gəlirləri 13.548 milyon manat (3.0 dəfə çox), xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə gəlirləri isə 48.801 milyon manat (əvvəlki ildə zərər olub) təşkil edib. Bu dövrdə ehtiyatların yaradılmasında 25.137 milyon manat məbləğində zərər tanınıb (əvvəlki ildə ehtiyatlar bərpa edildiyindən gəlir tanınıb).

Hesabatda 2023-cü il ərzində AMB tərəfindən dövlət büdcəsinə vəsait köçürülmədiyi qeyd olunub.

2023-cü ildə AMB tərəfindən əməkdaşlara sərf olunan xərc 37.241 milyon manat təşkil edib. Bu, 2022-ci illə müqayisədə 14.6 faiz çoxdur. Cari ilin yanvar ayının 1-nə AMB-nin torpaq, tikili və avadanlıqlarının dəyəri 353.449 milyon manat olub. Bu da ötən ilin analoji dövrünün göstəricisindən 22.8 faiz artıqdır.

Ümumilikdə isə ötən il Mərkəzi Bankın effektiv faiz dərəcəsi metodu ilə hesablanmış faiz gəlirləri 482 milyon 523 min manat, sair faiz gəlirləri 32 milyon 804 min manat, faiz xərcləri 299 milyon 649 min manat təşkil edib.

İllik müqayisədə effektiv faiz dərəcəsi metodu ilə hesablanmış faiz gəlirləri 277 milyon 2 min manat (2,3 dəfə), sair faiz gəlirləri 17 milyon 305 min manat (2,1 dəfə), faiz xərcləri 131 milyon 721 min manat (78 faiz) artıb.

Maliyyə Nazirliyinin açıqladığı məlumatdan aydın olur ki, bu ilin birinci yarısında Mərkəzi Bankın reallaşdırılmış mənfəətinin sərbəst qalığından dövlət büdcəsinə 250 milyon manat daxil olub. "Mərkəzi Bank haqqında" Qanuna əsasən hesabat ilinin mənfəəti ilk növbədə Mərkəzi Bankın kapital ehtiyatlarının formalaşdırılmasına yönəldilir. Kapital ehtiyatları formalaşdırıldıqdan və Mərkəzi Bankın illik maliyyə hesabatı auditor rəyi ilə təsdiqləndikdən sonra reallaşdırılmış mənfəətin sərbəst qalığı dövlət büdcəsinə (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müraciətinə əsasən müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fonduna) köçürülür. Bu isə o deməkdir ki, cari ilin ilk yarısında büdcəyə köçürülən vəsait 2023-cü ildə Mərkəzi Bankın əldə etdiyi xalis mənfəətin sərbəst qalığıdır.

Xatırladaq ki, 2017-ci ildə Mərkəzi Bankın xalis mənfəətinin sərbəst qalığı kimi hesablanan 1 milyard manat dövlət büdcəsinin təminat fonduna köçürülüb, onun 800 milyon manatı bilavasitə büdcəyə daxil edilib. AMB bir də 2020-ci ildə əldə etdiyi mənfəət hesabına 2021-ci ildə dövlət büdcəsinə 250 milyon manatlıq köçürmə edib. 2021-2022-ci ilər zərərlə başa vurulduğuna görə büdcəyə hər hansı köçürmə edilməyib.

**Mərkəzi Bankın audit yoxlamasından keçmiş hesabatından aydın olur ki, onun aktivləri aşağıdakı qiymətli kağızlara investisiya edilir:**

*- Qeyri-rezident agentlik notları. Bu notlar Avropa, Asiya və Amerikanın maliyyə agentlikləri tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyaları ehtiva edir.*

*- Beynəlxalq maliyyə qurumları tərəfindən buraxılmış notlar. Bu qiymətli kağızlar Avropa, Asiya, Afrika və Amerikanın beynəlxalq təşkilatları tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyaları ehtiva edir.*

*- Xarici dövlətlərin xəzinədarlıq notları. Xəzinədarlıq notları müxtəlif inkişaf etmiş ölkələrin xəzinədarlıqları tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyaları ehtiva edir.*

*- Qeyri-rezident yerli hakimiyyət orqanları və bələdiyyə istiqrazları. Bu istiqrazlar Almaniya, Yeni Zelandiya, Kanada, İsveç, Yaponiya, Danimarka və Hollandiyanın yerli hakimiyyət orqanları tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyaları ehtiva edir.*

*- Korporativ istiqrazlar. Bu istiqrazlar müxtəlif ölkələrin korporasiyaları tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyaları ehtiva edir.*

*- Xarici dövlət istiqrazları. Bu istiqrazlar "Bank of England" və Çin Hökuməti tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyaları ehtiva edir.*

*- İpoteka ilə təmin edilmiş ABŞ istiqrazları. Bu ipoteka ilə təmin edilmiş istiqrazlar Federal Milli İpoteka Assosiasiyası (FNMA), Dövlət Milli İpoteka Assosiasiyası (GNMA) və Federal İpoteka Kredit Korporasiyası (FHLMC) tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyaları ehtiva edir.*

*- İpoteka ilə yüklü olan istiqrazlar. Bu təminatlı qiymətli kağızlar müxtəlif maliyyə institutları tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyaları ehtiva edir.*

*- Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu. Bu yerli istiqrazlar Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyaları ehtiva edir.*

*- Aqrarkredit QSC. Amortizasiya olunan dəyərlə qiymətləndirilən maliyyə aktivlərinə "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatına ("Aqrarkredit" QSC) məxsus, AMB tərəfindən 2015-ci ildə alınmış 2 milyard 500 milyon manat və əlavə olaraq 2016-cı ildə alınmış 7 milyard 500 milyon manat (ümumilikdə 10 milyard manat) nominal dəyərinə və 0.15 faiz dərəcəsinə malik, 2045-ci ildə ödənilməli olan qiymətli kağızlar daxil idi. 2017-ci il ərzində "Aqrarkredit" QSC həmin qiymətli kağızların 517,896 min AZN-lik hissəni vaxtından əvvəl geri alıb.*

Bu istiqrazlar hər hansı digər oxşar maliyyələşdirmə mənbələrinin və müqayisə edilə bilən maliyyə alətlərinin mövcud olmadığı xüsusi bazar seqmentində verilmişdir. Azərbaycan Respublikasının Mərkəzi Bankı öz makroiqtisadi siyasəti çərçivəsində ümumi pul sisteminin sabitliyini təmin etməyi hədəfləyən bankların və digər maliyyə institutlarının maliyyələşdirilməsində müstəsna rol oynayır. Bunu nəzərə alaraq, həmin istiqrazlar üzrə illik 0.15 faiz dərəcəsi bu seqmentə uyğun bazar faiz dərəcəsi hesab olunmuşdur".

31 dekabr 2023-cü il tarixinə AMB-nin portfelində "Aqrarkredit" QSC-nin istiqrazlarının qalığı (nominal üzrə) 9 milyard 57,659 min manat təşkil edib. Bu qiymətli kağızların ödənişinə dövlət zəmanəti verilir.

**İqtisadçı-ekspert Rəşad Həsənovun "Yeni Müsavat"a dediyinə görə, AMB öz valyuta ehtiyatlarını müxtəlif alətlərdən istifadə etməklə formalaşdırır:** "Bura həm daxildə sterilizasiya vasitəsilə, həm də aktivlərini yerləşdirməklə əldə edilən gəlirlər daxildir. İnvestisiya alətlərindən əldə olunan gəlirlərin artımında əsas rol 2021-2022-ci il inflyasiya təzyiqi fonunda mərkəz bankların uçot dərəcələrini artırmasına aiddir. Bu artım qiymətli kağızların faiz gəlirlərinin artmasına səbəb olub. Eyni zamanda Mərkəzi Bankın ehtiyatlarının artmasında daha bir mühüm amil daxili bazardakı sterilizasiya prosesidir. AMB-nin investisiya siyasəti konservativliyi ilə seçilir. Düşünürəm ki, ictimai vəsaitlərin idarə olunması sahəsində ehtiyatlı siyasət davam etdirilməlidir. Lakin müəyyən dövrlərdə daxili bazardakı tələbatı nəzərə almaqla, öz ehtiyatlarının bir qismini daha yüksək faizlə daxildə yerləşdirə bilər. Əlbəttə, çox ehtiyatlı və valyuta bazarına təsirləri hesablanmaq şərtilə. Mərkəzi Bank həmçinin qızıla da investisiya edə bilər".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 140 (8513) 9 avqust 2024

# Antarktidada yeni temperatur rekordu



## Bu şəxslərə alma yemək olmaz

**Alma hər bir mağazada tapıla bilən ən məşhur və faydalı meyvələrdən biridir. Tərkibindəki yüksək qida maddələrinə görə onu hətta "meyvələrin şahı" da adlandırırlar.**

Almanın bütün faydalarına baxmayaraq, bəzi insanlar sağlamlıqlarına zərər verməmək üçün istehlakdan qaçmalı və ya minimuma endirməlidirlər.

Birincisi, alma komponentlərinə fərdi dözümsüzlüyü olan insanlara onları yeməkdən çəkinmələri tövsiyə olunur. Bu, meyvələrə allergik reaksiyalar kimi özünü göstərə bilər. İkincisi, alma mədə, bağırsaq və sidik yollarının selikli qişalarına mənfi təsir göstərən bir çox turşu ehtiva edir. Odur ki, mədəsinin turşuluğu yüksək olan insanlar almadan uzaq durmalı və ya ölçülü şəkildə yeməlidirlər.

Çiy almanın əks göstəriş olduğu müəyyən xəstəliklər var. Bunlara qastrit, mədə xorası, bağırsaq pozğunluqları, pankreatit, kolit və mədə-bağırsaq traktının digər xəstəlikləri, xüsusən də kəskin mərhələdə daxildir. Diaqnozun bilinməyən halda sidik-cinsiyyət sistemi pozğunluğu olan insanlarda da alma problem yarada bilər.

Bundan əlavə, əhəmiyyətli diş problemləriniz varsa, alma yemək zərərli ola bilər, çünki almanın tərkibindəki turşular diş minasını məhv edə və çürüklərin yaranmasına kömək edə bilər. Şəkərli diabetiniz varsa, qan şəkəri səviyyələrində sıçrayışlara səbəb olmamaq üçün şəkərsiz alma növlərini seçməlisiniz. Əsəb pozğunluğuna həssas olan insanlara turşunun yüksək konsentrasiyası səbəbindən vəziyyəti pisləşdirə bilən alma istehlakını məhdudlaşdırmaq tövsiyə olunur.



**Yerin soyuq qütbünün yerləşdiyi Antarktidadakı Vostok stansiyasının alimləri yeni temperatur maksimumunu (-34,2 dərəcə) qeydə alıblar. Bu barədə Arktika və Antarktika Tədqiqat İnstitutunun (AARI) mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, hazırda Antarktidada qışdır, iyul və avqust qitə üçün ən soyuq aylardır, qeydə alınan temperatur planetin ən soyuq nöqtəsində qış üçün ən isti göstəricidir. Xatırladaq ki, indiyədək qeyd edilən ərazidə rekord temperatur minimumu 1983-cü ildə müşahidə edilib və -89,2 dərəcə təşkil edib.**

## Bolqarıstan məktəblərində LGBT təbliğatına qadağa



**Bolqarıstan parlamentinin deputatları qeyri-ənənəvi cinsi oriyentasiya (LGBT) ilə bağlı ideya və baxışların populyarlaşdırılmasını, eləcə də bioloji deyil, gender kimliyinin müəyyən edilməsini qadağan edən qanun qəbul ediblər. "Dirçəliş" siyasi partiyasının təklif etdiyi qanun layihəsinin müzakirəsi dörd saata yaxın davam edib. Layihəni 135 deputat dəstəkləyib, 57 deputat əleyhinə çıxıb, səkkiz deputat isə bitərəf qalıb. Partiyanın lideri Kostadin Kostadinovun qeyd edib ki, qanun daha əvvəl qəbul edilməli idi, çünki Bolqarıstan kitab mağazalarında və internetdə artıq təkcə məktəblilər üçün deyil, həm də altı yaşınadək uşaqlar üçün cinsi tərbiyəyə dair dərsliklər yer alıb.**

## Suyu normadan artıq içdiyini göstərən 5 əlamət

**Hətta ən təmiz, faydalı su da artıq içiləndə orqanizmə zərər verir. Amma necə bilmək olar ki, biz çox su içirik, ya az.**

"Medicina" bəzi əlamətləri təqdim edir. Hətta yayda da çox su içmək bu əlamətləri yarada bilər.

**1.** Gecə yuxudan oyanıb, tualetə gedirsiz. İnsan normalda gecə tualetə oyanmamalıdır. Gün ərzində də 7-8 dəfə sidik çağırışı olursa və hər dəfə sidiyin rəngi daha açıq, ağ rəngə çalırsa, deməli, suyu çox içirsiz.

**2.** Güclü yorğunluq, enerji azlığı - maye çox içdikdə, böyrəkləri yükləyir, bu zaman stress hormonu kortizol qana çox sıçrayır. Bundan sonra insanda qəribə yorğunluq, əzginlik hissi baş qaldırır. Əgər belə hallar olursa, mayenin miqdarı çoxdursa azaldın. Deməli, siz günə 5 yox, 2 stəkan su içməlisiz.

**3.** Baş ağrıların artıb - maraqlıdır ki, su az içəndə də, çox içəndə də baş ağrıya bilir. Sularla qana həddən artıq çox duzlar yüklənir ki, bu da hüceyrələri, beyin toxumasını şişirdir və baş ağrıyır.

**4.** Əzələ spazmı, əl-ayaqda ağrı, zeiflik - çox su içdikcə, elektrolitlərin miqdarı azalır, bu da əzələlərdə qıcolmalara səbəb olur.

**5.** Səhərlər üz, göz, əl-ayaq şişkin olur - bu da ciddi siqnaldır.

## Bunları bilirsinizmi?

Avqust

* Ən qısa müddətli müharibə 1896-cı ildə Britaniya ilə Zanzibar arasında baş verib. Bu müharibə cəmi 38 dəqiqə çəkib.
* Əhalisinin heyrətamiz çoxluğuna baxmayaraq Çində cəmi 200 soyad mövcuddur.
* Qədim Romada cərrahiyyə əməliyyatı zamanı xəstə ölürdüsə, həkimin əlləri kəsilirdi.
* Las-Veqasın kazinolarında divarda saat yoxdur.
* Alyaskanın bayrağı 1926-cı ildə rus-İsveç əsilli 13 yaşlı Benni Benson tərəfindən hazırlanıb.
* Kapitan Kuk Antarktidadan başqa ayağı bütün materiklərə dəyən yeganə insandır.
* Siçovul dəvədən daha çox susuz qala bilər.
* Nil çayı tarixi boyu 2 dəfə donub - IX və XI əsrlərdə.
* Köpək balığının qarnında olan balalardan ən güclüsü digərlərini yeyir və tək dünyaya gəlir.
* Eskimosların dilində qar mənasını verən 20-dən çox söz var.
* Dünyanın nüvəsi ən azı günəş qədər istidir.
* Böyüklük olaraq 1,3 milyon ədəd dünya bir araya gəlsə bir Günəş boyda olar.
* Dünyanın bu başından o biri başına tullanmaq lazım gələrsə bu sıçrayış 42 dəqiqə vaxt aparar.
* Yer kürəsi əhalisinin yarısı qarı yalnız şəkillərdə görür.
* Çində müəllimlər məktəbdə uşaqlara yatmağa 20 dəqiqə vaxt verirlər.
* Hər 5 nəfərdən 2-si sevdikləri ilə evlənir.
* Mütəmadi olaraq hansısa qaydaya 21 gün əməl etsəniz, bu, sizin üçün vərdişə çevriləcək.
* Aktrisa Sirli Henderson "Harri Poter" filmində 13 yaşlı ağlayan qız Mirtl rolunu oynaıb. Bu zaman onun 40 yaşı olub.
* Çarli Çaplinin bənzərləri yarışmasında Çaplin özü 3-cü yeri tutub.
* Koala gün ərzində 18-22 saat yatır.
* Plutonun sahəsi Rusiyanın sahəsindən kiçikdir.
* Dələlər də pişiklər kimi miyoldayırlar.
* 1-3 yaşlı uşaqlar göz yaşı olmadan ağlayırlar.
* Kolibri geriyə uçmağı bacaran yeganə quşdur.
* Con Rokfeller 100 milyon pul qazanmaq və 100 yaşında ölmək istəyirdi. O, 192 milyon pul qazanıb 97 yaşında ölüb.
* Tokioda zooparkdakı heyvanların insanlardan dincəlməsi üçün zoopark ildə 2 ay bağlanır.
* Körpələr gündə 400 dəfə, böyüklər isə 15 dəfə gülümsəyir.

## Almaniyalı pulunu görün nəyə xərclədi...



**Dünyada Mişlen ulduzu alan 145 restoran var və almaniyalı Mattias Ruhl onların hamısına baş çəkib. Bu barədə BILD məlumat yayıb. Bildirilib ki, bu fikir ona pandemiya zamanı gəlib. O, proqram mühəndisliyi startapını satıb və ailəsi ilə daha çox vaxt keçirmək istəyib. Məlumata görə, qurman 20 ölkədə olub. Xüsusilə Yaponiya onu heyran edib, çünki "burada yeməklər mükəmməl hazırlanıb və təqdim edilib".**

Rul səyahətə təxminən 100 000 avro, yeməyə isə təxminən bir o qədər də pul xərcləyib. Ən bahalı şam yeməyi Şanxaydakı "Ultraviolet" restoranında olub - 1400 avro. Üçulduzlu restoranda şam yeməyi adambaşına 250-500 avroya başa gəlib.

## Kökəlməyə qoymayan yağlı qidalar

**Bəzi yüksək yağlı qidalar arıqlamağınıza kömək edə bilər. Bunu dietoloq Mariya Kapralova deyib. Həkim qeyd edib ki, belə məhsullardan biri də avokadodur. Bu məhsul güclü antioksidant kimi çıxış edir və toksinləri bədəndən çıxarmağa, həmçinin qanda xolesterinin səviyyəsini aşağı salmağa kömək edir. O, həmçinin əlavə edib ki, avokado xərçəng hüceyrələri ilə mübarizə aparmağa kömək edir. Həkim qoz-fındıq yeməyi də daha çox məsləhət görüb. Fındıq çox doyurucudur, bu da iştahanı idarə etməyə və həzmi yaxşılaşdırmağa kömək edir.**

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.